Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

13 MAY 2020-ci il

№ 76 (4207)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYANIN HİTLERÇİ BABASI İLƏ BAĞLI YENİ VERSİYA - MERKELLƏ GÖRÜŞDƏ BUNA TOXUNULUBMU...

■ səh. 5 ■

Kreml Qarabağ siyasətində mühüm dəyişikliklər edir, Ermənistanda Rusiyayönlü siyasi partiyalar hərəkətə keçdi ■ səh. 9 ■

Mədəniyyət Nazirliyində baş verənləri indiyə qədər MM-in deputatları da görmürdü - deputatların bəzilərinin "gec alışması"... ■ səh. 8 ■

Beynəlxalq koronavirusla mübarizə qanununun hazırlanmasında Azərbaycanın iştirakı - ölkəmiz ən qabaqcıl təcrübə sahibidir... ■ səh. 4 ■

Türkiyədə erməni kilsəsinin qapısının yandırılmasında "erməni barmağı" versiyası... ■ səh. 6 ■

"EuroHome" sahibi kimə meydan oxuyur - Kəmaləddin Heydərov ciddi mesaj verdi... ■ səh. 13 ■

Neft bazarında Azərbaycanı da məmnun edəcək maraqlı proseslər başladı ■ səh. 11 ■

ABŞ və Çinin yeni savaşı dolları çökdürür, Azərbaycan uduşlu mövqedə... ■ səh. 12 ■

Cəmiyyətin xeyrinə banklara kreditlərlə bağlı verilmiş "30 sentyabradək möhlət"inə banklarda müqavimət var ■ səh. 15 ■




## Avropa Komissiyasının «koronavirus xəbərdarlığı» - Azərbaycanın əzəldən doğru yolda olduğu təsdiqlənir...

■ səh. 3 ■



Azərbaycanın Sovet İttifaqı qəhrəmanlarının sayını kim bu qədər dolaşığa salıb - «Vikipediya»da hətta 42 rəqəmi də var... ■ səh. 7 ■



Dövlət satınalmalarının Azərbaycan ictimaiyyətindən gizlədilməsinə dair ciddi fakt... ■ səh. 14 ■

Ermənistanın iş dünyasından Paşinyana qlobal ağır ittiham - «bir iş adamı təhlükəsiz vəziyyətdə deyil»... ■ səh. 5 ■

Paşinyan faşist Njdenin heykəlini qorumaqla öz babası Paşinyanın Hitlerə satılmasına haqq qazandırır ■ səh. 2 ■



Azərbaycanın ÜST ilə işbirliyi yeni mərhələdə - koronavirusla mübarizə Azərbaycanı ən sabit partnyora çevirir ■ səh. 3 ■



Ünvanlı sosial yardım mexanizmi dəyişir, yardım alanların sayı bir az da artırılır... ■ səh. 15 ■



Türk lirəsinin ucuzlaşması Azərbaycanla ticarətə hansı təsirləri göstərə bilər... ■ səh. 14 ■



İctimai nəqliyyatda koronavirusa qarşı yeni qaydalar... ■ səh. 13 ■



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıtda tibbi maska fabrikinin və qoruyucu kombinezon istehsalı müəssisəsinin açılışında iştirak etdi

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak edib.**

"Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlət başçısına və birinci xanıma müəssisələrin fəaliyyəti barədə məlumat verib.

Bildirilib ki, tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara davamlıdır. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə, öz növbəsində, istehsal gücünü artırmağa imkan verəcək. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq.

"Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətdə birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanıb. Məhsullar polietilen qoruyucu membranla örtülüb, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Bu isə öz növbəsində məhsulun keyfiyyətini artırır. Belə ki, bu parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlılığı, yüngüllüyü ilə fərqlənir. İstehsal olunan qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur. Məhsulun uyğunluğu müvafiq standartlar üzrə sertifikatlaşdırılıb. Burada gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Belə ki, buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Beləliklə, bu cür müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır.



Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşüb.



## Azərbaycanda daha 104 nəfərdə koronavirus aşkarlandı, 55 nəfər sağaldı, 1 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında 104 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 55 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, arterial hipertoniya və şəkərli diabet xəstəliyi olan 1943-cü il təvəllüdlü vətəndaş vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 2693 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1735 nəfər müalicə olunaraq sağalıb, 33 nəfər vəfat edib, 925 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 28 nəfərin vəziyyəti ağır, 42 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 202.282 test aparılıb.

# Paşinyan faşist Njdenin heykəlini qorumaqla öz babası Paşinyanın Hitlerə satılmasına haqq qazandırır

**Paşinyanın hitlerçi babası ilə bağlı son məlumatları təkzib etməyə çalışması şübhələri daha da artırdı. İndi daha çox adam möhkəm inanır ki, Ermənistan baş nazirinin babası vaxtilə faşistlərə əlaltılıq edib və vətən xaini olub.**

Bu sözləri baki-xeber.com-a politoloq Aydın Quliyev Ermənistan baş nazirinin hitlerçi babası ilə bağlı faktların ortaya çıxmasını şərh edərkən deyib. A.Quliyevin sözlərinə görə, bu faktların faşist əlaltıları olan Njde və Dronun ətrafında Ermənistan üçün heç də əlverişli olmayan beynəlxalq rüsvayçı qalmaqalın yaşandığı dövrdə üzə çıxması ikiqat zərbədir: "Əgər Paşinyan səmərəsiz təkzibin əvəzinə babasına aid faktın etirafı yolunu tutsaydı, daha səmimi görünə bilərdi. Bu halda Paşinyan nisbətən daha güclü bir arqumentə sahib ola bilərdi ki, babanın 70 il əvvəlki cinayəti üçün övladları və nəvələri məsul tutmaq olmaz. Ancaq Paşinyan babasının Hitlərə satqınlıq etməsi faktını danmaqla başqa nəticələr çıxarmağa əsas verir". Politoloqun sözlərinə görə, baba Paşinyanın Hitlerə satqınçılıq etməsi faktı sübut edir ki, nəvə Paşinyanın Njde və Dro sevgisi həqiqətən faşizm təəssübkeşliyinə söykənir: "Paşinyan faşizm təəssübkeşi olmasaydı, faşist cəlladlara Ermənistanda qoyulmuş abidələri belə ürəkdən müdafiə etməzdi. Paşinyanın faşizmə təəssübkeşliyinin arxasında babasının vaxtilə Hitlerə satılması faktı əsas rol oynayır. Şübhə yoxdur ki, bu gün Paşinyan faşist Njdenin heykəlini qorumaqla əslində öz babasının SSRİ-yə xəyanətinə haqq qazandırır".



A.Quliyev sonda onu da qeyd etdi ki, paşinyanlar ailəsi "Hitlerə satılmışlar" ayamasını silinməz şəkildə qazandı.

*Baki-xeber.com*

# DTX Mədəniyyət Nazirliyində aparılan həbslərlə bağlı məlumat yaydı

**Azərbaycan xalqının mədəni-tarixi irsi hesab edilən tarix-mədəniyyət abidələrinin mühafizəsi, bəzi vəzifəli şəxslərin öz maraqları naminə bu sahədə dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərinin qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən müvafiq tədbirlər həyata keçirilib.**

Baki-xeber.com DTX-nin rəsmi saytına istinadən xəbər verir ki, aparılan araşdırmalarla Azərbaycan Respublikası Mədəniyyət nazirinin müavini Bayramov Rafiq Yasin oğlu və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Sultanov Zakir İmran oğlunun vəzifə səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə, vətəndaşların hüquqlarına mühüm zərər vuran çoxsaylı qanunsuz əməllərə yol vermələrinə dair məlumatlar əldə edilib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci il mayın 8-də məhkəmənin qərarı əsasında Rafiq Bayramov və Zakir Sultanovun xidməti və yaşadıqları ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdiyi pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülüb. İstintaq araşdırmaları zamanı Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin Zakir Sultanov tərəfindən müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib. Davam edən cinayət işi üzrə, mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində vəzifə səlahiyyətlərindən istifadə edərək razılıq verilməsi ilə bağlı əldə olunmuş məlumatlar araşdırılır. Həmçinin araşdırmalar nəticəsində Rafiq Bayramov tərəfindən Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsilə rayonlarda fəaliyyət göstərən musiqi məktəblərində müəllimlərin adına artıq tədris saatlarının rəsmiləşdirilərək bunun müqabilində onların əmək haqlarından tutulan vəsaitlərin, habelə müxtəlif qanunsuz yollarla əldə edilən digər vəsaitlərin hər ay toplanaraq ələ keçirilməsinə əsaslı şübhələr müəyyən edilib. Respublika ərazisindəki musiqi məktəblərinin, mədəniyyət evlərinin, kitabxanaların, rəsm məktəblərinin, qalereyaların, klubların, muzeylərin və sair mədəniyyət müəssisələrinin tikintisi, cari və əsaslı təmiri işlərinə görə ayrılan dövlət vəsaitlərinin bir hissəsinin Rafiq Bayramov tərəfindən şəxsən və Mədəniyyət Nazirliyinin regional idarələrinin rəhbərləri vasitəsi ilə müntəzəm olaraq nağdlaşdırılıb mənimsənildiyinə dair məlumatlar əldə edilib. Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Rafiq Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

**Avropa İttifaqının üzv dövlətləri COVID-19-un yayılmasının ikinci dalğasına hazırlaşmalıdırlar. Bu barədə məlumatı TASS agentliyi Avropa Komissiyasının nümayəndəsinə istinadən yayıb.**

# Avropa Komissiyasının "koronavirus xəbərdarlığı" - Azərbaycanın əzəldən doğru yolda olduğu təsdiqlənir...

## *Məhərrəm Zülfüqarlı: "Ölkəmizin koronavirusun ikinci dalğası ilə bağlı səsləndirdiyi xəbərdarlıq..."*



Qurumun nümayəndəsi əlavə edib ki, dövlətlər belə bir inkişafa hazır olmaq üçün hər şeyi etməlidirlər. Müvafiq nəticələrin növbəti risq qiymətləndirilməsindən sonra veriləcəyi deyilir. Bu prosedur Avropa Xəstəliklərin Qarşısının Alınması və Nəzarət Mərkəzi tərəfindən mütəmadi olaraq həyata keçirilir.

Nümayəndə onu da vurğulayıb ki, mövcud dalğalar düzgün idarə olunsa belə, yeni dalğalar yarana bilər.

Son məlumatlara görə, dünyada 4 milyondan çox COVID-19 hadisəsi aşkar edilib. Eyni zamanda, 300 minə yaxın insan ölüb, 1,5 milyon sağalıb.

Bütün bunlar onu göstərir ki, koronavirus infeksiyası ilə bağlı ikinci dalğa barədə Azərbaycanın həyəcan təbilinin əsaslı olduğu bir daha təsdiqlənir. Məsələ ondadır ki, bundan əvvəl pandemiyanın ikinci dalğasının başlama ehtimalının böyük olması barədə Azərbaycan tərəfi bildirib. Xəbərdarlıqda qeyd olunurdu ki, qaydalara riayət olunmasa, ikinci dalğa çox sərt şəkildə ola bilər. Ona görə də hər bir kəs öz fərdi məsuliyyətini dərk etməli və bütün qaydalara riayət etməlidir.

Müşahidələr göstərir ki, Azərbaycanın sözügedən məsələ ilə bağlı xəbərdarlığı və bununla əlaqədar həyata keçirdiyi bir sıra qabaqlayıcı tədbirlər ölkəmizin doğru yolda olduğunu təsdiqləyir.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bütün bunlar onu göstərir ki, Azərbaycanın koronavirusun ikinci dalğası ilə bağlı səsləndirdiyi xəbərdarlıq artıq ən mötəbər qurum tərəfindən təsdiqlənir: "Məsələ ondadır ki, Azərbaycanın müvafiq qurumları lazımi tədbirlərin görülməyəcəyi halda pandemiyanın ikinci dalğasının ola biləcəyini demişdilər.

*"Avropa ölkələrindən fərqli olaraq, Azərbaycan pandemiya ilə mübarizədə daha çevik və qabaqlayıcı tədbirlər gördü"*

Avropa ölkələrindən fərqli olaraq, Azərbaycan koronavirusla mübarizədə daha çevik və qabaqlayıcı tədbirlər gördü. Ölkəmizin bu istiqamətdə atdığı addımlar öz müsbət təsirini göstərdi. Hətta bizim əhali deyilən şərtlərə çox da əməl etməsə də, yenə də bizdə virusa yoluxanların sayı digər ölkələrlə müqayisədə çox azdır.

Azərbaycanda bu sahədə vəziyyət başqa ölkələrə baxanda qat-qat yaxşıdır. Biz məhz qabaqlayıcı tədbirlər sayəsində buna nail olmuşuq. Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın çevik fəaliyyəti qeyd olunmalıdır. Qurum rəsmilərinin operativ olaraq ictimaiyyəti məlumatlandırması çox şeyi həll edir. Görünən odur ki, insanlar məntiqi əsaslandırmaya çox inanırlar. Prezidentin ümumən apardığı məqsədyönlü siyasət sayəsində pandemiyanın geniş yayılmasının qarşısı alındı. Allah eləsin ki, biz yaxın perspektivdə bu bəladan tam xilas olaq".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycan dövlətinin koronavirusla mübarizədə göstərdiyi həmrəylik nümunələri bütün dünya tərəfindən təqdir edilir. Ümumdünya Səhiyyə Təşkilatı ilə uzun illərdir səmərəli əməkdaşlıq edən ölkəmiz bu istiqamətdə üzərinə düşən işin həmısını layiqincə həyata keçirib.**

# Azərbaycanın ÜST ilə işbirliyi yeni mərhələdə - koronavirusla mübarizə Azərbaycanı ən sabit partnyora çevirir

## *Adil Qeybulla: "Bu həm də Azərbaycanın beynəlxalq təsisatlara inteqrasiyası baxımından da mühüm bir məsələdir"*



AZƏRTAC-ın yaydığı məlumata görə, Azərbaycanla ÜST arasında donor sazişi imzalanıb.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun təşəbbüsü ilə cari il mayın 4-də keçirilmiş Hərəkatın COVID-19 virusu ilə mübarizəyə həsr olunmuş Zirvə görüşündə bu sahədə Qoşulmama Hərəkatının ən çox yardıma ehtiyacı olan üzv dövlətləri üçün Azərbaycan Hökuməti tərəfindən Ümumdünya Səhiyyə Təşkilatına ianənin ayrılmasını bəyan edib.

Mayın 11-də Ümumdünya Səhiyyə Təşkilatının Cenevrədəki baş qərargahında "Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) arasında donor sazişi" imzalanıb.

Azərbaycan Respublikasının Cenevrədəki BMT bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov və ÜST-in Baş direktoru Tedros Qebreyesus tərəfindən imzalanmış donor sazişi Azərbaycan tərəfindən ÜST-in "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində vəsaitin ayrılmasını və bu vəsaitin Azərbaycanla razılaşdırmaqla ən çox köməyə ehtiyacı olan Afrika, Asiya və Latın Amerikasında yerləşən Qoşulmama Hərəkatının üzv dövlətləri üçün istifadə edilməsini nəzərdə tutur.

Sənədin imzalanma mərasimi zamanı ÜST-in Baş direktoru Azərbaycan tərəfindən verilmiş bu qərarın çox təqdirəlayiq olduğunu vurğulayaraq, ölkəmizin səhiyyə sektoruna, xüsusilə hazırda COVID-19 virusuna qarşı beynəlxalq səviyyədə mübarizəyə yönəldiyi diqqət və qayğının yüksək qiymətləndirildiyini bildirib. Tedros Qebreyesus Azərbaycan tərəfindən COVID-19 virusu ilə mübarizə üçün ayrılmış könüllü maliyyə töhfəsinin qlobal həmrəyliyin nümunəvi nümayişi olduğunu diqqətə çatdıraraq, verilmiş qərara görə Azərbaycan Respublikasının Prezidentinə ÜST adından dərin minnətdarlığını ifadə edib.

Daimi nümayəndə V.Sadıqov, öz növbəsində, Azərbaycanın ÜST ilə əməkdaşlığa yüksək önəm verdiyini vurğulayıb və ölkəsi tərəfindən təşkilatın qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərinin yüksək qiymətləndirildiyini bildirərək, pandemiya ilə bağlı ÜST-in tövsiyələrinin Azərbaycan tərəfindən tətbiq edildiyini nəzərə çatdırıb.

*"Bu donor sazişinin də, əslində, mahiyyəti odur ki, Azərbaycanın razılığı ilə həmin vəsait ehtiyacı olan ölkələrə..."*

Qeyd edək ki, BMT-nin ixtisaslaşmış qurumu kimi qlobal miqyasda beynəlxalq sağlamlığa cavabdeh olan Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq tərəfdaşıdır. Azərbaycanın ÜST ilə əməkdaşlığı təşkilatın Cenevrədəki baş qərargahı və Kopenhagendəki ÜST-in Avropa üzrə Regional Ofisi vasitəsilə həyata keçirilir. Eyni zamanda, ÜST-in ölkəmizdə ofisi mövcuddur.

Azərbaycanla ÜST arasında imzalanan donor sazişinin nə kimi əhəmiyyəti var? Azərbaycanın ÜST-lə əlaqələri başqalarından nə ilə fərqlənir?

Qeyd edək ki, mütəxəssislər Azərbaycanla ÜST arasında donor sazişinin imzalanmasının böyük əhəmiyyətə malik olduğunu bildirirlər. Mütəxəssislərin fikrincə, Azərbaycanın koronavirusla qlobal mübarizədə göstərdiyi ümumbəşəri həmrəylik özü böyük bir nümunədir. Dövlətimiz ÜST-in bu yöndə çağırışlarına operativ reaksiya verməklə bir sıra dövlətlərdən üstün olduğunu sübut etdi. Onlar hesab edirlər ki, məlum sazişin imzalanması Azərbaycanla ÜST arasında əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirir.

Tibb üzrə tanınmış mütəxəssis, professor Adil Qeybulla da "Bakı-Xəbər"ə donor sazişinin Azərbaycanın beynəlxalq aləmdə imicinə müsbət dividendlər gətirdiyini vurğuladı: "Bilirsiniz ki, Azərbaycan ÜST-in ölkəmizdəki missiyası ilə koronavirusla mübarizədə çox səmərəli əməkdaşlıq edib.

Bununla yanaşı, bildiyiniz kimi, Azərbaycan pandemiya ilə mübarizəyə 5 milyon dollar civarında töhfə verib. Bu donor sazişinin də, əslində, mahiyyəti odur ki, Azərbaycanın razılığı ilə həmin vəsait ehtiyacı olan ölkələrə, xüsusən də Latın Amerikası ölkələrinə yardım kimi ayrılsın. Burada söhbət donor kimi çıxış edən təşkilatın, ölkənin razılığı ilə vəsaitin xərclənməsindən gedir. Təbii ki, bu həm də Azərbaycanın beynəlxalq təsisatlara inteqrasiyası baxımından da mühüm bir məsələdir".

***İradə SARIYEVA***

# Kamran Əliyev Baş Prokurorluğun videokonfrans rejimində əməliyyat müşavirəsini keçirdi

**Mayın 12-də Baş Prokurorluqda videokonfrans rejimində geniş əməliyyat müşavirəsi keçirilib. Baş prokuror Kamran Əliyevin sədrliyi ilə ölkə ərazisində qüvvədə olan xüsusi karantin rejimi qaydalarına riayət edilməklə videokonfrans rejimində keçirilmiş müşavirəyə Prokurorluğun Mərkəzi aparatının, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikası Hərbi və Bakı Şəhər prokurorluqlarının rəhbər heyəti, rayon (şəhər) və ərazi hərbi prokurorları və digər şəxslər qatılıb.**



Əməliyyat müşavirəsində çıxış edən Baş prokuror göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya bir daha dərin təşəkkürünü ifadə edib. Qeyd olunub ki, Azərbaycan Prezidentinin hərtərəfli düşünülmüş müdrik dövlət siyasəti və səriştəli idarəçiliyi ilə həyata keçirilən mütərəqqi daxili və xarici siyasət nəticəsində ölkəmizin dayanıqlı inkişafı təmin edilib, cəmiyyətimizdə sabitlik, hüquq qaydası və qanunçuluq bərqərar olub, Azərbaycan dinamik inkişaf edən dövlətə çevrilib.

Bildirilib ki, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq hazırda ölkəmizdə yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatlar reallaşdırılır və dövlət idarəçiliyinin bütün sferalarında mütərəqqi kompleks tədbirlər həyata keçirilir. Bu islahatların əsas istiqamətlərindən birini təşkil edən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi Azərbaycan Prokurorluğunu da əhatə etməli, islahatların geniş vüsət aldığı hazırkı şəraitdə prokurorluq orqanları da öz fəaliyyətini yenidən nəzərdən keçirməli və dövrün tələblərinə uyğun şəkildə təşkil etməlidir.

Qarşıda mühüm vəzifələrin dayandığı xüsusi qeyd edilərək prokurorluq orqanlarında bir sıra struktur dəyişikliklərinin və kadr islahatlarının həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılıb. "Prokurorluq haqqında" AR Qanununda müəyyən edilmiş əsas fəaliyyət istiqamətləri üzrə görülən tədbirlərin kəsərliliyinin artırılması, prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüş yaradılması, iş yükünün əsassız olaraq artırılmasına, bürokratizmə və lüzumsuz sənəd dövriyyəsinə gətirib çıxaran təcrübə və müddəaların aradan qaldırılması, informasiya-kommunikasiya texnologiyalarının imkanlarından daha geniş istifadə etməklə cari fəaliyyətin səmərəliliyinə və operativliyinə nail olunması, müasir və mütərəqqi standartların tələblərinə əməl edilməklə şəffaflığın ən yüksək səviyyədə təmini diqqət mərkəzində saxlanılmaqla, həyata keçiriləcək islahatların son nəticədə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qalxmasına və qanunla icrası prokurorluğun üzərinə qoyulmuş vəzifələrin daha çevik yerinə yetirilməsinə xidmət edəcək əsas tələblər kimi müəyyənləşdirilib.

Tədbirdə çıxış edən müşavirə iştirakçıları prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini səsləndirib, faydalı müzakirələr və fikir mübadiləsi aparılıb.

Əməliyyat müşavirəsində qarşıda duran vəzifələrin icrası ilə bağlı müfəssəl Fəaliyyət Planı qəbul olunub və onun qısa müddətdə icraya yönəldilməsi aidiyyəti idarə rəhbərlərindən tələb edilib.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarının kollektivi adından əminliklə bildirib ki, Azərbaycan Prokurorluğunun kollektivi öz fəaliyyətini göstərilən etimada layiq səviyyədə qurmaqla, bundan sonra da digər əlaqədar dövlət təsisatları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əminamanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi yolunda öz xidmətlərini göstərəcək.

# Beynəlxalq koronavirusla mübarizə qanununun hazırlanmasında Azərbaycanın iştirakı - ölkəmiz ən qabaqcıl təcrübə sahibidir...

***Rasim Quliyev:** "Bizim təcrübəmizdən yararlansalar, ümumi işə xeyri olar"*

**ABŞ Senatında pandemiya dövründə insan hüquqları ilə bağlı iki qanun layihəsi irəli sürülüb: "Pandemiya zamanı insan hüquqlarının müdafiəsi" və "COVID-19-a qarşı mübarizə haqqında Beynəlxalq qanun". Sözügedən qanunlar sui-istifadələrə qarşı mübarizə və insan hüquqlarının müdafiəsində ABŞ-ın aparıcı rol oynamasını nəzərdə tutur.**




Senat hesab edir ki, dünyada avtoritar rejimlər COVID-19-dan tənqidi boğmaq üçün istifadə edir və öz ölkələrində senzura tətbiqini reallaşdırırlar.

Birinci qanun layihəsini senatorlar Edvard Marki, Marşa Blekbern, Ben Kardin, Rocer Viker və Ceff Merkli, həmçinin konqresmenlər Ceyms Makqovern, Enn Vaqner və Tom Malinovski təqdim edib. Sənəddə pandemiya bəhanəsi ilə insan hüquqları pozuntularının artmasının qarşısının alınması məqsədilə Dövlət Departamenti və USAİD tərəfindən plan hazırlanması nəzərdə tutulur. Qanun layihəsi qəbul edilərsə, Dövlət Departamentinin üzərinə koronavirusa qarşı mübarizə adı altında hədsiz tədbirlərdən sui-istifadə haqqında faktlarla bağlı məlumat toplamaq və məlumatlandırmaq öhdəliyi qoyulacaq. Digər qanun layihəsini senatorlar Bob Menendes, Ben Kardin, Cin Şahin, Kris Kuns, Tim Keyn, Ceff Merkli, Ed Marki və Kori Buker təqdim edib. Sənəd Tramp administrasiyasını "COVID-19-un yayılmasını dayandırmaq üçün digər ölkələr, beynəlxalq təşkilatlar və çoxtərəfli forumlarla konstruktiv şəkildə qarşılıqı fəaliyyət göstərməyə" məcbur etməyə yönəlib. Hər iki qanun layihəsinin yaxın günlərdə təsdiq ediləcəyi gözlənir.

Bəllidir ki, koronavirusla mübarizə sahəsində Azərbaycanın zəngin təcrübəsi var və ortaya ciddi nəticələr qoyulub. Virusla mübarizədə böyük nəticələr əldə etmiş bir ölkə kimi bu layihədə Azərbaycanın da iştirakına ekspertlər necə baxır?

"Resurs" Analitik İnformasiya Mərkəzinin sədri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan yalnız bu pandemiya ilə bağlı yox, digər məsələlərdə də beynəlxalq sistemdə aktiv rol oynayıb:"Biz bunu ölkəmizin təşəbbüsü ilə reallaşan layihələrdə, ev sahibliyi etdiyimiz mötəbər idman yarışlarında və ölkəmizdə keçirilən mühüm beynəlxalq tədbirlər zamanı görmüşük. İldə bir neçə böyük tədbirə biz ev sahibliyi edirik. Bu, Azərbaycanın çevik siyasətindən, daxili təhlükəsizliyindən xəbər verir. Bütün bu amillər ölkəmizi dünya miqyasındakı proseslərdə də aktiv oyunçuya çevirir. Biz bütün bu göstəriciləri pandemiya dönəmində də müşahidə edə bildik. Azərbaycan böyük sosial dəstək paketi təqdim etdi. Heç bir ölkədən yardım almadan, daxili resursları hesabına bu virusla mübarizə apardı. Əksinə, biz ÜST-ə və bir sıra başqa ölkələrə yardım etdik. Hətta dünyanın ən aparıcı ölkələrində virus ciddi narahatlıqlar yarada bildisə, bizdəki proses normal keçir. Bu müddət ərzində ölkəmizin təşəbbüsü ilə iki böyük videokonfrans keçirildi.

Orada indiki məqamda məhz ölkələr arasındakı münasibətlərin necə tənzimlənməsi ilə bağlı mühm razılıqlar əldə edildi. ABŞ senatında qaldırılan məsələ ilə bağlı isə deyə bilərəm ki, onlara ölkəmizin öz vətəndaşının qədrini necə bildiyi əyani sübut olundu.

**Bəziləri bunu başqa yerlərə yozmağa çalışdı. Hətta güya vətəndaşların hüquqlarının pozulduğuna aid etdilər. Amma biz nəticəyə baxıb danışmalıyıq. Hesab edirəm ki, bizim təcrübəmizdən yararlansalar, ümumi işə xeyri olar. Çünki artıq bütün vacib məsələlərlə bağlı bir Azərbaycan modeli deyilən anlayış ortyadadır. Kim vətəndaşların sağlamlığına qarant durmaq istəyirsə, görülən tədbirlərdə bizim sınaqdan çıxan təcrübəmizdən istifadə edə bilər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın hitlerçi babası ilə bağlı yeni versiya - Merkellə görüşdə buna toxunulubmu...

**Ermənistanın Baş naziri Nikol Paşinyanın babasının faşistlərə xidmət etdiyi, onlarla əməkdaşlıqda olduğu məlum olub. Bu barədə Ermənistan saytları məlumat yayıb. Məlumatda bildirilir ki, Baş nazir daha əvvəl babası, 1913-cü il təvəllüdlü Nikol Paşinyanın fotosunu paylaşaraq, onun Böyük Vətən Müharibəsi illərində vətən üçün döyüşdüyünü qeyd edib:**

"Nikol Paşinyan, 1913-1943, 554-cü motoatıcı alayın 138-ci diviziyası".

Baş nazirin paylaşımından sonra şərhlər gəlməyə başlayıb. Şərhlərdə bildirilir ki, Nikol Vartanoviç Paşinyan nasist ordusunun sıralarında, Qaregin Njdenin rəhbərlik etdiyi legionda SSRİ-yə qarşı döyüşüb. Paşinyanın babasının faşistlərə xidmət etdiyini təsdiqləyən şərhlər indi də gəlməkdə davam edir. Bu paylaşımdan sonra Ermənistan mətbuatı araşdırma apararaq, baba Paşinyanın əslində faşistlərə xidmət etdiyini üzə çıxarıb. Mətbuatın araşdırması zamanı məlum olub ki, 23.12.1913 tarixində Ermənistan SSR-in Yenokavan bölgəsində anadan olmuş Nikol Paşinyan düşmənlə əməkdaşlıq edib və öldürülüb.

Qeyd edək ki, Paşinyanın baş nazir seçiləndən sonra Almaniyaya səfəri zamanı maraqlı hal yaşanmışdı. Həmin vaxt media yazırdı ki, Merkel Paşinyanla təkbətək söhbətdə erməni mafiyasının ölkəsindəki fəaliyyətindən danışıb. Hətta Merkelin Paşinyana Ermənistan hakimiyyəti ilə sıx əlaqədə olan həmin mafiyanın alman hökumətinə də nüfuz edə bilməsi ilə bağlı xəbərdarlıq etdiyi bildirilirdi. Paşinyanın babası ilə bağlı ortaya çıxan xəbər Merkelin Paşinyanla görüşdə ikincinin babasının onlara işləməsi faktını da erməni baş nazirin nəzərinə çatdıra biləcəyini inandırıcı edir. Bununla bağlı ekspertlər nə düşünür?

Hərbi ekspert Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bu fakt Ermənistan hakimiyyətinin faşizmə niyə belə sıx bağlı olduğunu bir daha ortya çıxardı:"Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasının yolverilməz olduğunu dəfələrlə daha bəyan edib. Prezident müxtəlif səviyyəli platformalarda bununla bağlı bəyanatlar səsləndirib. Dövlət başçısı alman faşizmi ilə əməkdaşlıq etmiş, buna görə SSRİ hüquq-mühafizə orqanları tərəfindən həbs olunmuş Qaregin Njdeyə Ermənistanda heykəl qoyulmasını da kəskin şəkildə pisləyib, bunun qəbuledilməz olduğunu bildirib. Lakin Nikol Paşinyan Ermənistanda faşizmin qəhrəmanlaşdırılmasına haqq qazandırmağa çalışıb. Mən əminəm ki, Paşinyanın öz babasının harda, necə döyüşdüyündən xəbəri olub. Elə bunu da Qərbə xoş gəlsin deyə edib. Bilirdi

## *Daşdəmir Əliyev: "Artıq rəsmən təsdiq olundu ki, Ermənistana rəhbərlik edən şəxsin babası faşistlərlə birlikdə olub"*






ki, belə məlumatların dəqiqləşdirilməsi indiki zəmanədə asandı. İnternet üzərindən istənilən adam həmin məlumatları dəqiqləşdirə bilir. Kimin Böyük Vətən Müharibəsində harda vuruşduğu və ya əsir düşdüyü ilə bağlı məlumatlar elektron bazaya yerləşdirilib. Paşinyanın bu addımı biləərək edilən gedişə oxşayır. Artıq rəsmən təsdiq olundu ki, Ermənistana rəhbərlik edən şəxsin babası faşistlərlə birlikdə olub. Nikol Paşinyanın bugünkü siyasi fəaliyyəti, alman faşistlərinə Qaregin Njde ləqəbi ilə xidmət etmiş Qaregin Ter-Arutyunyanı əzizləməsi və onu müdafə etməsi, ona İrəvanın mərkəzində qoyulan hündürlüyü 6 metr olan heykəli tez-tez ziyarət etməsi Paşinyanın özünün də faşist mahiyyətindən xəbər verir. Hətta bir qədər də araşdırma aparılsa, onun babasının Qaregin Njdenin silahdaşı olması üzə çıxacaq. Almaniya rəhbərliyində belə bir məlumatın olmasına şübhə etmirəm. Çünki nəhəng dövlətlər başqa ölkələrdə hakimiyyətə kimin gəldiyini dərindən izləyirlər. Paşinyanla da bağlı almanların belə araşdırma apardıqlarına əminəm. Ola bilməz ki, Merkel görüş zamanı bu detalı Paşinyanın nəzərinə çatdırmasın. Ermənistanın rəsmi dairələri güyə bu məlumatların doğru olmadığını bəyan edirlər. Ancaq fakt və Paşinyanın öz mahiyyəti ortadadır".

*Məhəmmədəli QƏRİBLİ*

# Ermənistanın iş dünyasından Paşinyana qlobal ağır ittiham - "bir iş adamı təhlükəsiz vəziyyətdə deyil"...

**İş adamları iqtisadi inqilabın təəssüf ki, bir mif olduğunu, kağız üzərində qaldığını, sadəcə, danışıqlarda səsləndiyini xatırladaraq Ermənistanı tərk edirlər. Bu barədə "ArmNews" televiziya şirkətinin "Abraam Qasparyanla axşam xəbərləri" verilişində çıxışı zamanı "ArmNews" televiziya şirkətinin informasiya departamentinin direktoru Abraam Qasparyan bildirib.**



Onun sözlərinə görə, bəzi iş adamları səhmlərini satıb və biznesini ölkədən ixrac edib: "İqtisadçılar deyirlər ki, indi pul qazanmaq çox çətindir, qazanc yoxdur və risqlər yüksəkdir. Bir sözlə, bir iş adamı Ermənistanda biznes qurmaqdan qorxur. Buna "Bank sirri" qanununda boşluqlar əlavə olunur: strateji sirləri olan məlumatlar sıza, kimlərinsə əlinə keçə bilər".

Qasparyan bunu Milli Şura tərəfindən qanunsuz əmlakın müsadirə edilməsi haqqında yaxınlarda qəbul edilmiş qanuna istinad edərək deyib.

Teleicmalçının fikrincə, başqa "narahat elementlər" də var: "Bu qanuna, çox güman, kapitalın yenidən bölüşdürülməsini tənzimləyən qanun deyilə bilər. Bir iş adamı burada özünü təhlükəsiz hiss etmir: "pulların alınması" istənilən vaxt baş verə bilər. Bu qorxular üzündən iş adamları Ermənistandan gedirlər və bu da iqtisadiyyatda dərin boşluqlar yaradır. Bir sözlə, ötən iki ildə gözləntilər özünü doğrultmadı".

Belə məlum olur ki, Paşinyanın ötən iki ildə vədləri və gördüyü işlər, sadəcə, mif olub. İqtisadi tədbirləri özünü doğrultmayıb. İqtisadi azadlıqlardan isə, ümumiyyətlə, danışmağa dəyməz.

## *Məhəmməd Əsədullazadə: "Paşinyanın iqtisadi azadlıqlar və firəvan cəmiyyət bəyanatları sabun köpüyü kimi əridi getdi"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, ötən iki ildə Paşinyan əsasən əvvəlki hakimiyyət rəsmilərini təqib etməklə məşğul olub: "Ermənistanda etirazlardan və hakimiyyətin dəyişməsindən iki il keçir. Bu müddət ərzində Nikol Paşinyanın islahatlar dalğası yalnız keçmiş hakimiyyət nümayəndələrinin həbsi və təqibi ilə davam etdi. Halbuki, xalq ondan sosial vəziyyətin yaxşılaşdırılmasını, iş adamları yeni investisiya mühitinin yaradılmasını gözləyirdi. Ancaq Paşinyanın verdiyi mesajların populizmə əsaslandığının bir daha şahidi olduq. Məhz hazırda Ermənistanın iş adamları bunu açıq şəkildə dilə gətirirlər. Paşinyan iş adamlarından əlavə xərac toplayır və onları hər vasitə ilə sıxışdırır. Ümumiyyətlə, erməni cəmiyyəti və düşüncəsi kriminala meyllidir. Orada baş verənlər bu qaydada iləreallaşır. Paşinyanın iqtisadi azadlıqlar və firəvan cəmiyyət bəyanatları sabun köpüyü kimi əridi getdi. Çünki Ermənistanın iqtisadi davamlılığını qoruyan resursları yoxdur. Xarici yardımlardan asılı olan bir ölkənin iqtisadi inkişafdan danışması, müharibə şəraitində olan bir ölkənin xarici investisiyaları ölkəyə cəlb edəcəyini vurğulaması utopiya idi. Artıq erməni iqtisadçıları və iş adamları bunun əyani şahididirlər. Paşinyanın ölkəni ağır duruma apardığının fərqindədirlər. Bu ölkənin inkişafa qədəm qoyması yalnız illüziyadır. Ermənistanın inkişafı Azərbaycanın ərazilərinin işğalına son qoyulmasından asılıdır".

*"Artıq erməni iqtisadçıları və iş adamları bunun əyani şahididirlər"*

*Vidadi ORDAHALLI*

**Erməni KİV-i məlumat yayıb ki, güya Türkiyənin İstanbul şəhərinin Bakırköy məhəlləsində olan erməni kilsəsini yandırmağa cəhd ediblər. Türkiyədəki erməni patriarxlığının nümayəndəliyi faktı təsdiqləyib. Onların bildirdiyinə görə, cəhdi edən şəxs "koronavirusu ermənilər törədib" şuarını səsləndirib.**

# Türkiyədə erməni kilsəsinin qapısının yandırılmasında "erməni barmağı" versiyası...

***Tural İrfan:** "Türkiyənin dözümsüz ölkə imicini formalaşdırmağa çalışırlar"*

Bildirilir ki, şikayət əsasında saxlanılan şəxs günahını etiraf edib və bunu koronavirusun ermənilər tərəfindən yayılması ilə izah edib.

Bəllidir ki, Türkiyədə dini ayrıseçkilik yoxdur. Başqa dinin daşıyıcılarına normal münasibət bəslənir. Belə olan halda, bu təxribatın ermənilərin özü tərəfindən hazırladığını nə dərəcədə inandırıcı saymaq olar?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu məlumatda da erməni hiyləsi, yalanı açıq hiss edilir:"Onlar millət olaraq hər zaman bütün proseslərdən yararlanmağa çalışıblar. Bu gün də dünyada koronavirus pandemiyası gündəmdədir. Görünür, bu vəziyyətdən də hansısa formada öz mənafeləri üçün yararlanmağa cəhd edirlər. Bu hadisənin, xüsusilə də güya Türkiyədə baş verməsi təxribatın olduğuna şübhə yeri qoymur. Nəyə görə bu kimi "problemlərlə" ermənilər dünyanın başqa ölkələrində deyil, məhz Türkiyədə məşğul olurlar? Türkiyədə dini dözümlülük yüksək səviyyədədir. Belə olmasaydı, ermənilərin onların başına gətirdiklərinin fonunda indi heç həmin ölkədə bir dənə də olsun erməni kilsəsi qalmamalıydı. Bilirsiniz ki, Qüds şəhərindəki müqəddəs məsciddə bütün dinlərə bir yer ayırıblar. Ermənilər üçün də yer var. Onlar daima orda mübahisələr yaradırlar, digər xristian təriqətlərini ordan sıxışdırmağa cəhd edirlər. Yəni ermənilər, xüsusilə də dini müstəvidə təxribatları törətməkdə mahirdirlər. Lazımdır ki, Türkiyədəki din xadimləri də aktiv olsunlar. Çox təəssüf ki, bizim müsəlman din xadimləri daha çox diqqəti İslamın daxilindəki tərqiət məsələlərinin aydınlaşmasına ayırırlar. Bir balaca qriqorian kilsəsi dini müstəvidə təxribat edirsə, onun cavabını ilk növbədə dini camea verməlidir. Nüfuzlu din xadimləri öz sözlərinin kəsəri ilə belə mövzuları yeridəcə bağlamalıdırlar. Ermənilərdən ibarət olan din xadimlərinə başa salsınlar ki, dini siyasətə qatmaq olmaz. Belə manipulyasiyalarla Türkiyənin dözümsüz ölkə imicini formalaşdırmağa çalışırlar. Bu yaxınlarda bizim Şeyxulislam Trampa məktub



yazdı ki, İrana qarşı sanksiyaları yumşaltsınlar.

**Təqdirəlayiq haldır. Amma biz istərdik ki, din xadimləri müraciətdə bütün aspektləri nəzərə alsınlar. Trampa həm də ermənilərin işğal etdikləri ərazilərimizdəki məscidlərdə hansı vandallıqları törətdikləri barədə məlumat verilsəydi yaxşı olardı. Ermənilər belə xırda məsələləri sonradan yavaş-yavaş böyüdürlər. Bu səbəbdən də, nüfuzlu din xadimləri bunun təxribat olduğunu çıxıb deməlidir. Görürlər ki, saxta soyqırım məsələsi effekt vermir, indi də belə təxribatlara əl atırlar".**

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanda mövcud vəziyyətin təhlili burada güc strukturları ilə baş nazir Nikol Paşinyanın ciddi problemlərinin yarandığını üzə çaxarır. Bu xüsusda Ermənistanın "Jamanak" nəşri yazır ki, ölkənin hüquq-mühafizə sistemində kadr dəyişiklikləri gözlənir və bu dəyişikliklər sistemi əvvəlki rejimə and içmiş kadrlardan təmizləməyə yönələcək.**

# Paşinyanla güc strukturları arasında toqquşmalar başladı



Nəşr qeyd edir ki, yaxın günlərdə Ermənistan İstintaq Komitəsinin sədri Hayk Qriqoryan və əslində Ermənistanın yeni hakimiyyəti tərəfindən həyata keçirilən antikorrupsiya siyasətinin təxribata məruz qoyduğu bir neçə "məşhur müstəntiq" vəzifəsindən azad olunacaq. Bundan başqa, Ermənistan Milli Təhlükəsizlik Xidməti ilə də Paşinyanın ciddi problemləri var. Bu qurumun keçmiş direktoru Artur Vanetsyanla yanaşı, indiki rəhbərlik də Paşinyanla çətinliklər yaşayır. Xüsusən də Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktorunun müavini vəzifəsinə Argişti Kərəmyanın təyinatından sonra burada qiyam başlayıb. Məlumata görə, təyinatdan narazı olan bir sıra şəxs təşkilatdan istefaya getdiyini açıqlayıb. İstefa ərizəsi yazanlar arasında Milli Təhlükəsizlik Xidmətinin İstintaq Şöbəsinin rəisi, onun müavini də yer alıb. Milli Təhlükəsizlik Xidmətinin direktoru Eduard Martirosyanın da istefa məktubu yazanlar sırasında olduğu vurğulanıb. Qeyd edək ki, Argişti Kərəmyan Ermənistan kəşfiyyatına Dövlət Nəzarət Komitəsindən gətirilib.

"Qraparak" qəzeti yazır ki, narazılığa daha bir səbəb Milli Təhlükəsizlik Xidməti əməkdaşlarının maaşlarından koronavirusla mübarizə fonduna məcburi pul tutulmasıdır:"Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları bizə bildirib ki, mayor rütbəsindən aşağı olan əməkdaşlar fondun hesabına 5 min dram (10,4 ABŞ dolları), yüksək rütbəli zabitlər isə 10 min dram (20,8 ABŞ dollar) köçürməyə məcbur edilir". Məlumata görə, Xidmətin əməkdaşları keçmiş məmurların törətdiyi cinayətləri araşdırmaqla məşğul olduqlarını və bu məcburiyyətdən narazı qaldıqlarını bildiriblər. Hesab edilir ki, Milli Təhlükəsizlik Xidməti ilə problemlər Paşinyan iqtidarına qarşı ciddi zərbələrlə müşayiət edilə bilər.

Erməni ekspert Stepan Danielyan bu xüsusda bildirir:"Paşinyan güc strukturları üçün "persona non grata" olur, yəni istənilməyən şəxs, onunla birlikdə iş görənlər gələcəkdə "koloborasionistlər" - əməkdaşlıq edənlər hesab ediləcək". O bildirib ki, bu tendensiya çoxdan hiss olunurdu, lakin indi aydın təzahürlər alır:"Polis və MTX mühafizəkar strukturdur, onların daxili davranış qaydası və ənənələri var. Bu, yaxşı və ya pisdir, hazırkı anda vacib deyil, bu belədir. Silahlı Qüvvələrə gəlincə, Nikol orada da xarici elementdir. Nikol bunu hiss edərək həmin strukturları - ən azı, qarşılıqlı inamsızlığı daha da dərinləşdirən rəhbər tərkibi nüfuzdan salmağa çalışır.

Lakin həm Nikol, həm də güc strukturlarını bir-birinin varlığına uyğunlaşmağa və alışmağa məcbur edən bir həqiqət var. Yəni bu strukturlarda Paşinyanla danışıqlar aparanlar olmalıdır, bu strukturların rəhbərləri həmin danışıqlar aparan rolunu oynayır və ya oynayırdı. İndi isə vəziyyət dəyişir və bu strukturların rəhbərləri "kənardan" təyin olunursa, o zaman Nikol "danışıqlar aparanlarsız" qalır. Bundan nə alınacağı maraqlıdır".

***Nahid SALAYEV***

**Faşizm üzərində Qələbinin 75 illiyi ilə bağlı olaraq bir sıra məsələlər, o cümlədən də azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının döyüş yolu, hebelə onların sayı yenidən gündəmə gətirilib. Son dövrlərin araşdırmaları bu istiqamətdə qaranlıq qalan bir sıra məsələlərin üstünə işıq salıb.**

# Azərbaycanın Sovet İttifaqı qəhrəmanlarının sayını kim bu qədər dolaşığa salıb - "Vikipediya"da hətta 42 rəqəmi də var...

***Cəbi Bəhramov:** ”...sayı yanlış olaraq 42 göstərilir, halbuki, onların sayı çoxdur”*

Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının sayı haqqında son günlərə qədər mübahisəli rəqəmlər mövcud idi. Hətta "Vikipediya" açıq ensiklopediyasında, eləcə də internet axtarış sistemlərində Sovet İttifaqı qəhrəmanlarımızın sayı müxtəlif cür verilib. Bir sıra internet resurslarında, o cümlədən də "Vikipediya"da onların sayının 42 nəfər olduğu qeyd edilir.

Yadınıza salaq ki, Prezident İlham Əliyev Rusiyanın populyar TASS informasiya agentliyinə müsahibəsində 123 azərbaycanlının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü vurğulayıb.

Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının sayı internet resurslarında, xüsusən də hər kəsin istinad etdiyi "Vikipediya"da niyə dəqiq qeyd edilməyib?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov "Bakı-Xəbər"ə bildirdi ki, hazırda bu istiqamətdə araşırdırmalar aparılır və tədqiqatlar zamanı ortaya kifayət qədər yeni fakt çıxıb. C.Bəhramovun sözlərinə görə, Sovet dövründə Azərbaycan xalqına göstərilən ögey münasibət nəticəsində bu adı daşıyan azərbaycanlıların tam sayını üzə çıxarmaq mümkün olmayıb. "Azərbaycanlı Sovet İttifaqı qəhrəmanlarının sayı yanlış olaraq 42 göstərilir, halbuki, onların sayı çoxdur. Məsələ burasındadır ki, hazırda bu istiqamətdə ciddi tədqiqatlar həyata keçirilir, axtarışlar gedir. Çünki Azərbaycandan kənarda İkinci Dünya Müharibəsi ərəfəsində, keçmiş SSRİ ərazisində azərbaycanlıların sayı 4 milyon 65 min nəfər olub. Yəni bura Cənubi Qafqaz respublikaları, o cümlədən, Rusiya Federasiyası, Mərkəzi Asiya və s. aiddir. Ona görə ki, keçən əsrin 30-cu illərində Azərbaycandan Qazaxıstana sürgün edilənlər də var. Arxiv sənədlərində bizə aydın olmayan çox fakt var ki, biz onları indi-indi üzə çıxara bilirik. O vaxt Azərbaycandan gedən məşhur generallarımızdan olan Akim Abbasovun Mir Cəfər Bağırova yazdığı məktubu tapdım. O, Qafqaz uğrunda gedən döyüşlərdə 833-cü batalyonun komandiri olub. Akim Abbasovu "Lenin" ordeninə və Sovet İttifaqı Qəhrəmanı adına təqdim ediblər, amma bunları ona verməyiblər. Bilirsiniz ki, Mehdi Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adını vermək istəmirdilər. Mehdi Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adı alması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev o vaxt sübut etdi ki, Mehdi Hüseynzadə doğrudan da qəhrəmandır. Həzi Aslanovun özünün ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı almaq prosesi də çox çətin olub. Onun ikinci dəfə bu adı alması üçün Musa Bağırov nə qədər əziyyət çəkib. Bu məsələdə azərbaycanlılara münasibət elə də yaxşı olmayıb. 123 nəfər Sovet İttifaqı Qəhrəmanımız olması faktını cənab Prezident doğru vurğulayıb.

O dövrdə azərbaycanlıların Sovet İttifaqı Qəhrəmanı adı almasına ermənilər ciddi maneələr törədirdilər. Sizə bir fakt deyim. Azərbaycana rəhbərlik etmiş Mircəfər Bağırovun özünü müharibədən sonra, 1947-ci il dekabrın 4-də 4 ay ay yarım müddətinə məzuniyyətə çıxarıblar. Səbəb də o idi ki, Qərbi Azərbaycandan azərbaycanlıların deportasiya edilməsi üçün qərar qəbul etsinlər. Tarixin detallarıdır bunlar. Bundan başqa, bir çoxu bilmirdi ki, Reyxstaqın üzərinə birinci qələbə bayrağını sancan azərbaycanlı Mirzə Hüseynov olub. O, kapitan idi, kəşfiyyat qrupunun rəhbəri olub. Reyxstaqa ilk girən Mirzə Hüseynov olub və bayrağı da o sancıb. O bayrağı sancan vaxt polkovnik Nikolayev onu vurub, deyib ki, bayrağı sancan azərbaycanlı yox, ya rus, ya da gürcü olmalıdır. Görürsünüz nələr baş verib? Azərbaycanlılara qarşı həmişə bu cür ədalətsizliklər olub" - deyə C.Bəhramov qeyd etdi.

C.Bəhramov, həmçinin, vurğuladı ki, Tarix İnstitutu Njdenin əməlləri ilə bağlı xüsusi nəşr hazırlayıb. İnstitut tərəfindən hazırlanan kitabın 400 səhifəyə qədər olduğunu deyən C.Bəhramovun sözlərinə görə, kitab erməni daşnaklarının alman nasizminə xidmətləri haqqındadır: "Alman nasistləri nasizm ideolgiyasını ermənilərdən öyrəniblər. Ermənilərin 1918-1920-ci illərdə və sonrakı dövrlərdə Azərbaycan xalqına qarşı törətdikləri cinayətlər nasist ideologiyasının əsasını təşkil etdi. Almanlar yəhudilərə qarşı o əməlləri törədərkən təcrübəni ermənilərdən götürmüşdülər. Njde təsadüfən gedib nasizmə xidmət etmədi ki... Cənab Prezident də vurğuladı və Njdenin iç üzünü açdı. Bəli, kim Hitler uğrunda vuruşurdusa, o, Ermənistan uğrunda vuruşmuş olurdu. Söhbət ondan gedir ki, bu məsələləri detalına qədər araşdırmaq lazımdır".

C.Bəhramov qeyd etdi ki, İkinci Dünya Müharibəsi illərində səfərbərliyə alınan azərbaycanlıların sayı 600 mindən çox olub. Onun sözlərinə görə, Qazaxıstandan, Mərkəzi Asiya ölkələrindən, Rusiya Federasiyasından, Qərbi Azərbaycandan (indi Ermənistan adlandırılır - C.B.), Gürcüstandan, həmçinin də Azərbaycandan İkinci Dünya Müharibəsinə səfərbər olunanların sayı çoxdur. "Təkcə Zəngəzurdan səfərbər olunanların sayı 18 mindən çoxdur. Azərbaycandan isə əvvəl deyirdilər ki, səfərbər olunanların sayı 600 minə yaxındır. Mən bu rəqəmi müqayisə edib dəqiqləşdirdim. Yəni 1941-1945-ci illər də daxil olmaqla, SSRİ əhalisinin sayını, müttəfiq respublikaların əhalisinin sayını və Azərbaycan SSR əhalisinin sayını müqayisə etdim. Bunlardan Azərbaycandan 1941-ci il iyunun 22-dən 1945-ci ilin dekabrına qədər səfərbər olunanların sayını çıxardım. Məlum oldu ki, ölkəmizdən səfərbər olunanların sayı 709 min 503 nəfər olub.

**Fikir verin, 1941-ci il iyunun 1-nə olan məlumata görə, Azərbaycan SSR-in əhalisinin sayı 3 milyon 331,8 min nəfər təşkil edib. Onun da 709 min 503 nəfəri səfərbər olunub. 1945-ci ilin dekabr ayının 25-nə olan məlumata görə, Azərbaycan SSR-in əhalisinin sayı gəlib 2 milyon 705 min nəfər olub. Bizim müharibədən geriyə qayıdanlarımızın sayı təxminən 83, 5 min nəfərə və itkilərimizin sayı 626 min nəfərə çatır. Səfərbər olunmaq o demək deyildi ki, hamısı ön cəbhəyə gedir. Azərbaycan əhalisi həm iqtisadi, hərbi zonalara, həm də döyüş bölgələrinə səfərbər olunub" - deyə C.Bəhramov vurğuladı.**

***İradə SARIYEVA***



*”O dövrdə azərbaycanlıların Sovet İttifaqı Qəhrəmanı adı almasına ermənilər ciddi maneələr törədirdilər”*

# Mədəniyyət Nazirliyində baş verənləri indiyə qədər MM-in deputatları da görmürdü - deputatların bəzilərinin "gec alışması"...

## *Azər Həsrət: "...bəzi deputatların maraqlarına uyğun olmadığı üçün onlar susurdular"*

**Məlum olduğu kimi, bir neçə gün əvvəl Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran coxsaylı qanunazidd əmələ yol verməleri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilib.**

Nəticədə Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov həbs ediliblər.

Bildiyimiz kimi, Mədəniyyət Nazirliyi, ümumiyyətlə, ən çox tənqid edilən nazirliklərdən biri kimi diqqəti cəlb edirdi. Nazirliyin ünvanına ən çox tənqid mədəniyyət xadimləri, işdən çıxarılmış mədəniyyət qurumlarının rəhbərləri tərəfindən səsləndirilirdi. Məsələ burasındadır ki, daha çox fəxri adların verilməsində, eləcə də musiqi məktəblərinə rəhbər təyinatında, mədəni irsin qorunması sahəsində ciddi nöqsanlar olduğu vurğulanırdı. Bölgələrdə fəaliyyət göstərən kitabxanaların da vəziyyəti elə də ürəkaçan deyil. Bunun hamısı nazirliyin həmin istiqaməti kurasiya edən məmurlarının günahı olduğu gizlin deyil.

Bir neçə ay əvvəl İsmayıllı rayonunun Gəraybəyli kəndinə səfər etmişdik, səfər çərçivəsində kənd kitabxanasında da olmuşduq. Gəraybəyli kənd kitabxanasının acınacaqlı durumu haqqında qəzetimizdə geniş məqalə də çap etmişdik. Gəraybəyli kənd kitabxanası yeganə deyil, respublikamızda onun kimi saysız kitabxana var ki, təmir olunacağı günü gözləyir. Dövlət büdcəsindən mədəniyyət sahəsinə kifayət qədər vəsait ayrılsa da, o vəsaitin cüzi bir hissəsinin mədəniyyətin inkişafına xərcləndiyi məlumdur. Bütün bu problemlər var və onların həlli vacibdir.

Diqqətinizi başqa bir məsələyə yönəltmək istəyirik. Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Xidmət rəisi Zakir Sultanov həbs edildikdən sonra onların öz işlərində yol verdikləri ciddi nöqsanlar barədə bir çox insan, xüsusən də bəzi millət vəkilləri bu gün danışır.

Qeyd edək ki, Mədəniyyət Nazirliyinin ayrı-ayrı vəzifəli şəxslərindən narazı qalan insanlar kömək üçün birbaşa millət vəkillərinə müraciət edirdilər. Onların isə bu insanlara heç bir köməyi dəymirdi.

Bildiyimiz kimi, bu sahədə ciddi problemlər həmişə olub, amma bəzi deputatlar buna indi reaksiya verirlər. Onlar məsələyə nə üçün vaxtında deyil, indi reaksiya verirlər?

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, bəzi millət vəkillərinin məqamında susub indi danışması "arxadan atılan daşa" bənzəyir. "Bəzi millət vəkilləri bu məsələyə niyə gec reaksiya verdilər, yaxud "qatar gedəndən" sonra onun arxasınca baxmağa başladılar? Əlbəttə, bu sualın cavabı bizə aydındır. Təəssüflər olsun ki, uzun illər Azərbaycan parlamentində kürsü zəbt etmiş deputatların böyük əksəriyyəti tənqidçi mövqedən çıxış etməyə çəkinib. Bunun da səbəbi var. Çünki bu vaxta qədər olanların bir qismi bu və ya digər şəkildə biznes maraqlarına xidmət edirdi və təbii ki, indi korrupsiyada adı hallandırılanların, bir növ, ortağı idilər. Bu və ya digər şəkildə yolları, eləcə də biznesləri kəsişirdi, ona görə də tənqid etməkdən çəkinirdilər. İndi aşkarlananları vaxtında tənqid etmək bəzi deputatların maraqlarına uyğun olmadığı üçün onlar susurdular. Bu baxımdan, cəmiyyətimiz çox şeyi itirirdi. Cənab Prezident də dəfələrlə çıxışlarında qeyd edib ki, hər kəs cəmiyyətdəki neqativ halları tənqid etməlidir. Biz hamımız müşahidə etdiyimiz mənfi halları diqqətə çatdırmalıyıq, ictimailəşdirməliyik ki, neqativ hallar aradan qaldırılsın. Bu həm də Prezidentə kömək deməkdir. Amma təəssüflər olsun ki, parlament bu məsələdə bütün fəaliyyəti dövründə "sinifdə qalıb". İndi yeni tərkib seçilib. Gözləyirdik ki, bu yeni tərkibdə, xüsusən də yeni deputatlar öz tənqidçi mövqeləri ilə seçiləcəklər. Amma aradan xeyli müddət keçməsinə baxmayaraq, hələ də biz o yenilərin tənqidçi mövqeyini görə bilmirik. Onların hansısa ciddi problemləri ictimailəşdirdiklərini müşahidə etmirik".

A.Həsrət hətta bəzi deputatların problemlərə zamanında reaksiya vermədiyini və fakt ictimailəşdikdən sonra ona münasibət bildirdiyini qeyd edir. "Bəzi deputatlar, bir növ, gözləyirlər ki, dövlətin müvafiq qurumları bu cür neqativ halları aşkarlasın və bundan sonra onlar "orada korrupsiya, orada yeyinti olub" desinlər. Halbuki, deputatlar fakt aşkarlanandan sonra yox, fakt aşkarlanmayana qədər bu problemi dilə gətirməli idilər. Siz deputatlar onun üzərində nəzarətçi olmalısınız. Siz deputatlar hamıdan əvvəl belə hallar barədə məlumatlı olmalısınız. Niyə xəbəriniz olmayıb? Yaxud, xəbəriniz olduğu halda, bunu nə üçün dilə gətirməyibsiniz? Niyə tənqidlərinizi səsləndirməmisiniz? İndi nə baş verir? İndi onsuz da müvafiq dövlət qurumları görməli olduqları işi görürlər. Bu da birbaşa Prezidentin iradəsinə bağlı məsələdir. Göstərmək istəyirlər ki, Prezident İlham Əliyev bu məsələdə belə mövqe tutursa, biz də ona dəstəkləyək. Belə olmur. Deputat dediyin sərbəst, müstəqil, tənqidçi olacaq, eyni zamanda da cəmiyyətin içində olacaq. Mən fürsətdən istifadə edərək, indi tərkibdə olan deputatlara çağırış etmək istəyirəm ki, bu vaxta qədər kimlərsə parlamentə kürsü zəbt etdilər, bilmirəm yatdılar, vaxtlarını havaya sovurdular, keçdi getdi, heç olmasa indən sonra Prezidentin çağırışlarına uyğun olaraq tənqidçi mövqelərini sərgiləsinlər, cəmiyyətin əyər-əskiyini dilə gətirib, həllinə təkliflərini versinlər" - deyə A.Həsrət vurğuladı.

***İradə SARIYEVA***




*"...gözləyirlər ki, dövlətin müvafiq qurumları bu cür neqativ halları aşkarlasın və bundan sonra..."*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Kreml Qarabağ siyasətində mühüm dəyişikliklər edir, Ermənistanda Rusiyayönlü siyasi partiyalar hərəkətə keçdi

**Ermənistanda mövcud hakimiyyətin fəaliyyətindən narazı qalan Rusiyanın bu ölkəyə yeni təzyiq siyasətini işə salması gözlənilir. Özü də Moskvanın bu dəfə daha sərt və çevik şəkildə İrəvanın üzərinə yeriməsi gözlənir. Çünki ABŞ Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmaq üçün aktiv hərəkətə keçib.**

Yaranmış vəziyyətdə Ermənistan mediası da yazır ki, Kremlin budəfəki təzyiq siyasəti əvvəlkilərlə müqayisədə İrəvan üçün daha amansız olacaq. Bura, bir çox sahələrlə yanaşı, Dağlıq Qarabağ münaqişəsi də aid edilir. Hətta "İravnuk" qəzeti yazır ki, Moskva barəsində son dövrlərdə daha çox bəhs etdiyi mərhələli həll planının işə salınmasını da tezləşdirməyə çalışacaq. Bütün bunlara əsas səbəblərdən biri ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kentin Alman Marşal Fondunun təşkil etdiyi müzakirə zamanı Ermənistanla bağlı verdiyi açıqlamalardır. Burada Kent bir sıra maraqlı məqamlara toxunaraq bildirib:"Ölkələr həqiqətən keçmişin mirasından yaxa qurtarmaq istəyirlərsə, məhkəmə və təhlükəsizlik xidmətlərində islahat aparmalıdırlar. Ölkələr buna müvəffəq olduqda, bolşevik sovet dövrünü tamamilə dəf etdiklərini söyləyə bilərlər. Bu ölkələrin uğur qazanmasını, çiçəklənən, demokratik, məsuliyyətli dövlətlər qurmasını, təhlükəsizliyini təmin etmələrini, xaricdən gələn hər hansı bir təcavüzə və ya təsirə müqavimət göstərə bilməsini arzu edirik". "Lragir.am" nəşri yazıb ki, bu açıqlama ilə Vaşinqton Ermənistanın sovet mirasından uzaqlaşmasında və suveren dövlət qurmasında maraqlıdır:"Bu yolda Ermənistan ilk növbədə məhkəmə sistemi və xüsusi xidmət orqanlarında islahatlar həyata keçirməlidir. Baş nazir Nikol Paşinyan qeyd edib ki, MTX-dən istintaq və antikorrupsiya funksiyaları alınacaq, MTX əks-kəşfiyyat, terrorizmə qarşı mübarizə və təhlükəsizliklə, habelə konstitusiya quruluşunun qorunması kimi məsələlərlə məşğul olacaq. O, ayrıca bir kəşfiyyat orqanı qurulacağını bildirib. Sərhəd mühafizə xidmətinə gəlincə, Paşinyanın sözlərinə görə, burada hibrid qurum fəaliyyət göstərəcək. Bu hibrid qurumun nə demək olduğu aydın deyil.

Xatırladaq ki, Ermənistanda üç qurum sərhəd mühafizə xidməti həyata keçirir. İran və Türkiyə sərhədini Rusiya sərhədçiləri, Gürcüstanla sərhədi MTX-nin sərhəd qoşunları, Azərbaycanla sərhədi isə ordu birləşmələri qoruyur. Ermənistan islahatlar nəticəsində Rusiya sərhədçilərinin xidmətlərindən imtina edib öz sərhədlərinə nəzarəti ələ keçirmək istəyirmi? Bu olmadan "sovet mirasından yaxa qurtarmaq" və suveren bir dövlət qurmaq barədə danışmaq çətindir. Elə ABŞ da rus ordusunun və sərhədçilərinin Ermənistandan çıxmasını istəyir. Paşinyanın islahatlarında bunun əks olunması istisnalıq təşkil etmədiyindən, proseslər Moskvanı olduqca qəzəbləndirir.

Qeyd edək ki, rus sərhədçiləri və ordusunun Ermənistandan çıxarılması Paşinyan hakimiyyətə gələndən gündəmdədir. Erməni şərhçi Naira Ayrumyan Paşinyanın Rusiya ordusunu ölkə ərazisindən çıxarmaq cəhdinin indi də davam etdiyini bildirir. Ayrumyan qeyd edir ki, Ermənistanın Sərhəd Qoşunları hazırda yox vəziyyətindədir:"Çünki Azərbaycanla sərhəd Ermənistan Müdafiə Nazirliyinin sərəncamındadır. İran və Türkiyə sərhədini Rusiya qoşunları qoruyur. Həmin qoşunlar Gümrüdəki 102-ci hərbi bazada və Erebuni hava limanında yerləşir. Hərbi bazanın sərəncamında tanklar, zirehli texnika, hərbi təyyarələr, helikopterlər və 5 min hərbçi var. Ermənilər bu barədə sussalar da, Gürcüstan NATO-ya girməyə namizəd olandan sonra onun da sərhədləri, demək olar ki, rus hərçilərinin nəzarətindədir. Bağlanmış müqaviləyə görə, Rusiya sərhədçilərinin Ermənistana göstərdiyi "atalıq qayğısı" müvvəqqətidir və nə vaxtsa sona çatmalıdır. Rusiya ilə müqavilədə qeyd edilir ki, Rusiya sərhədçiləri Ermənistanın Sərhəd Qoşunları yaranana kimi Ermənistana yardım edəcək". Buna görə, Naira Ayrumyan ehtimal edir ki, artıq həmin gün gəlib çatıb və Ermənistan özünü Sərhəd Qoşunları yaratmağa qadir ölkə kimi hiss edir. Buna görə də erməni şərhçi Rusiya ordusunun Ermənistandan çıxarılması üçün müəyyən bir yol xəritəsi də irəli sürür:"Bunu ilk növbədə Zvartnots hava limanında gerçəkləşdirmək lazımdır, orada Ermənistanın sərhəd nəzarəti məntəqəsində Rusiya əsgərləri dayanır. Bu nonsensdir və çox illərdir ki, həll edilməyib. Ermənistanın yeni hökuməti bəyan edib ki, suverenliyin keşiyində durub. Sərhədlərə nəzarət Ermənistanın suverenliyinin bərpası üzrə ilk addım olmalıdır. O da mümkündür ki, Ermənistanı 1922-ci il SSRİ-sinə bənzər Avrasiya İttifaqı utancından xilas etmək üçün Paşinyan hər şeyə gedə bilər - Rusiya hərbi bazasını çıxara da bilər, Dağlıq Qarabağa Azərbaycanın beynəlxalq aləmdə tanınan hüququ ilə də razılaşa bilər. Düzdür, ermənilərin indiki nəsilləri onu anlamasalar da, gələcək nəsillər bu cür uzaqgörən addımlarına görə onu, yəqin ki, ittiham etməz. Hər halda, bu kimi gedişlə Ermənistan Rusiya əsarətindən xilas ola bilər. Amma Kremlin indiki halda buna reaksiyası da sərt olacaq. Elə Paşinyanı cəzalandırmaq üçün Dağlıq Qarabağa Azərbaycanın beynəlxalq aləmdə tanınan hüququnun reallaşmasına Kreml daha tez yardım edə bilər".

Ermənistanın "Politeconomy" araşdırma institutunun rəhbəri Andranik Tevanyan da baş verənlər fonunda maraqlı məqama diqqət çəkir. O, 9 mayda Rusiyanın, Azərbaycandan fərqli olaraq, Ermənistanı qətiyyən yada salmadığını bildirir:"Parlamentimizdə Oruel üslubunda "zorakılıq təxribatı" nəzəriyyəsi təbliğ olunana və parlamentin aqressiv əksəriyyətinin coşğun alqışlarına layiq görülənə qədər rəsmi İrəvanın Qarabağ məsələsi üzrə bədnam mərhələli variant ətrafında danışıqlar aparması faktı səs-küy içərisində boğulur. Bu faktı gizlətməyə çalışan və baş nazir üçün vəkillik edən şəxs həmin baş nazir tərəfindən təxribatçı və xalq düşməni, ona qarşı zorakılıq isə "inqilabi hüququn reallaşması" elan olundu. Daha bir vacib detal səs-küy içərisində boğuldu. Faşizm üzərində qazanılmış qələbə ilə bağlı Rusiya prezidenti və Ermənistan rəhbəri arasında sıfır səviyyəli ünsiyyət olub. Halbuki, o günlə əlaqədar Putinin Qazaxıstanın birinci prezidenti Nazarbayev və Azərbaycan prezidenti İlham Əliyevlə telefon danışığı olub. Bizə qeyd etmək qalır ki, erməni-rus rəsmi əlaqələri, xüsusən Paşinyan-Putin münasibətləri düşmən deyilsə, ən azından soyuqdur. Səbəblər hamımıza məlumdur. Bu səbəblər Rusiyanın Qafqaza, Qarabağ məsələsinə ümumi yanaşmasına da təsirini göstərəcək". Ermənistanın "1in.am" nəşri isə yazır ki, rəsmi İrəvanın Rusiya ilə münasibətləri müstəqillikdən sonrakı dövrdə əsas məsələdir. Bu məsələ, ən azı, Qarabağ məsələsinə paralel və ya ən azından bununla bərabər Ermənistanın daxili siyasi həyatına təsir edən əsas amillərdən biri olub:"Bəzən bu iki məsələnin əlaqəli daxili təsiri olub. Bununla belə, şübhə yoxdur ki, Moskva bu vəziyyətdən Ermənistana təsir imkanlarını yaymaq üçün nə qədər istifadə etməyə çalışsa da, Ermənistan-Rusiya münasibətləri yalnız Dağlıq Qarabağ münaqişəsi ilə şərtlənmir. Qafqaz təhlükəsizlik sisteminin xarakteri və rejiminin bununla bağlı olduğunu nəzərə alaraq Ermənistan-Rusiya münasibətləri geosiyasi əhəmiyyətə malikdir. Bu mənada, xarici işlər naziri Zöhrab Mnatsakanyanın Ermənistan-Rusiya məsələlərinə dair, problemlər olmadıqda daha dərin bir problemin olduğu barədə açıqlaması, həqiqətən də, xüsusi əhəmiyyət və məna kəsb edir. Erməni-rus problemlərinin olmaması nə deməkdir? Bu, iki şey deməkdir, ya Ermənistanın suverenliyinin, ya da müstəqil bir Ermənistan dövlət siyasətinin mümkün olmamasıdır, ya da Rusiyanın bir əsrdən çox yaşı olan Türkiyə ilə ənənəvi Qafqaz oyunu yoxdur. Bu oyunun bir hissəsi Rusiya və Türkiyə arasındakı Moskva-Qars müqavilələrində öz əksini tapıb. Moskvanın, əlbəttə ki, reallıqda yaxın dostluq münasibətlərində olduğu Türkiyə ilə ənənəvi oyundan hələ prinsipial olaraq geri çəkilməməsinin göz qabağında olduğunu nəzərə alsaq, Kreml Ermənistanı oyunun bir hissəsi kimi nəzərdən keçirir. Nə qədər ki, Rusiya regional siyasətini Türkiyə ilə oyun üzərində qurur, Ermənistan-Rusiya münasibətlərində problemin olmaması o deməkdir ki, Ermənistan dövlətinin bu oyuna müqaviməti yoxdur. Mnatsakanyan problemlərin olduğunu və bunların müzakirə olunduğunu deyirsə, bu, Ermənistanın dayanıqlığı və suverenliyinin mövcudluğu, ən azı, görülən səylər haqqında bir ifadədir. Sözsüz ki, məzmun baxımından göstərilən səylərin tam olub-olmaması, əlbəttə, fərqli bir məsələdir. Ancaq bir şey aydındır ki, Qarabağ məsələsində Rusiyaya hər hansı güzəşt edilməsi Ermənistanın bütün müqavimət sistemini məhv edəcək. Moskvanı buna təhrik edən daha bir səbəb İrəvanın ABŞ meylindən əl çəkməməsi, bu ölkənin laboratoriyalarının ölkədə fəaliyyətinə icazə verməsidir. Kreml artıq buna qarşı da müqavimət yaradır. Təsadüfi deyil ki, "Ermənistan qartalları - Vahid Ermənistan" partiyasının nümayəndələri baş nazir Nikol Paşinyana ölkə əhalisinin təhlükəsizliyi naminə ABŞ bioloji laboratoriyalarının ləğvi tələbi ilə müraciət ediblər. Onlar bildiriblər ki, bu cür obyektlərin yerləşdirilməsi üçün heç bir hüquqi əsas yoxdur, lakin hakimiyyət illərdir vəziyyəti görməzdən gəlir. Yaydıqları bəyanatda vurğulanır: "Ermənistan ərazisindəki Amerika bioloji laboratoriyaları həm vətəndaşların sağlamlığına, həm də erməni genetik kodunun qorunmasına təhlükə yaradır. Ermənistanın suverenliyini və erməni xalqının təhlükəsizliyinin təmin olunmasının prioritetliyini nəzərə alaraq," Ermənistan qartalları - Birləşmiş Ermənistan" partiyası baş nazir Nikol Paşinyandan tələb edir ki, iki ay ərzində ABŞ-ın Ermənistandakı bütün bioloji laboratoriyalarını ləğv etsin". Moskva, bir sözlə, Ermənistana qarşı fəal hərəkətə keçib".

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

**"Son illərdə Azərbaycan ordu quruculuğunda böyük uğurlar qazanıb. Bu gün ölkənin Silahlı Qüvvələrini möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti səciyyələndirir.**

# Azərbaycanın 2 min adda hərbi məhsulunu cəmi 20 zavod buraxır...

## Tərlan Eyvazov: *"Azərbaycanın müdafiə sənayesi günü-gündən güclənir"*

Silahlı Qüvvələr ən müasir silahlar və hərbi texnika ilə təchiz edilib. Şübhəsiz, bütün bunlar son illərdə ölkənin hərbi qüdrətinin möhkəmlənməsinə gətirib çıxarıb".

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışına müsahibəsində deyib.

Prezident bildirib ki, "Global Firepower-2019"un hesabatına görə, Azərbaycan dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdədir: "Xüsusi qeyd etmək istəyirəm ki, 2006-cı ildə bizdə Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Son illərdə 20-dən çox hərbi zavod fəaliyyətə başlayıb. Bu zavodlarda 2000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal edilir, ordumuz həmin məhsullarla təchiz olunur. Eyni zamanda, biz hərbi məhsulları ixrac edirik".

Mövzu barədə danışan hərbi ekspert Tərlan Eyvazov qeyd etdi ki, Azərbaycanın hərb sənayesində əldə etdiyi uğurlar işğalçı Ermənistanda getdikcə daha böyük təşviş doğurur: "Azərbaycanın müdafiə sənayesi güclənir, həmçinin, Türkiyə ilə birgə hərbi zavodlar var. İsraildən, Rusiyadan və digər ölkələrdən müasir silahlar alınır. Eyni zamanda, beynəlxalq sərgilərdə Azərbaycan istehsalı olan hərbi avadanlıqlar nümayiş olunur".

Həmsöhbətimizin sözlərinə görə, son illər müdafiə sənayesi sahəsində inkişaf etmiş ölkələr Azərbaycanla işbirliyinə xüsusi diqqət yetirirlər: "Məlumat üçün bildirim ki, son illərdə ən müasir texnika və silahlar alınıb.

Onların arasında yüzlərlə zirehli texnika, çoxsaylı keşikçi gəmisi və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat və nəqliyyat helikopterləri, ən müasir pilotsuz kəşfiyyat və döyüş uçuş aparatları, hava hücumundan, raketdən müdafiə vasitələri, ən müasir rabitə vasitələri, reaktiv yaylım atəşi sistemləri, operativ-taktiki raket kompleksləri var. Bütün bunlar, nəticə etibarilə, Azərbaycanın hərbi qüdrətini daha da artırır".



*Günel CƏLİLOVA*

**Ermənişünas alim, Türkiyənin Erciyez Universitetinin professoru Qafar Çaxmaqlı sədri olduğu Təşəbbüs qrupu BAO-nun (Bütöv Azərbaycan Ocakları) təşkilatçılığı ilə keçirilən bir videokonfransda Mühacirətdə Qərbi Azərbaycan (İrəvan) Respublikasını elan edib.**




# Mühacir Qərbi Azərbaycan (İrəvan) hökumətinin kabinet üzvləri kimlər olacaq...

## Qabil Hüseynli: *"Rəhbərlikdə təmsil olunan adamların kimliyinə xüsusi fikir verilməlidir"*

## Rizvan Talıbov: *"Təklifimiz budur ki, 75 nəfərdən ibarət parlament formalaşdırılsın, həmin parlament də hökuməti seçsin"*

Qafar Çaxmaqlı deyib ki, uzun illər Azərbaycan və Türkiyə ictimaiyyətinin gündəmində olan bu ideyanı gerçəkləşdirmək üçün bu dəfə qərarlı addım atıldı: "Dünən Mühacirətdə Qərbi Azərbaycan (İrəvan) Respublikasını elan etdik". O əlavə edib ki, öncə bu respublikanın Milli Şurası fəaliyyətə keçəcək. Daha sonrakı mərhələdə respublikanın Milli Məclisi seçiləcək və hökumət formalaşdırılacaq".

Qeyd edək ki, bu təşəbbüs əslən Qərbi Azərbaycandan olan ziyalılar arasında birmənalı qarşılanmayıb. Bu ideyanı açıq dəstəkləyənlərlə yanaşı, qarşı çıxanlar da var.

Qərbi Azərbaycan kökənli sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, mühacir Qərbi Azərbaycan (İrəvan) Respublikasının elan edilməsini dəstəkləyir:"Bu çox müsbət bir təşəbbüsdür. Çünki qərbi azərbaycanlılar 1988-ci ildən etibarən öz tarixi torpaqlarından zorla qovulub. Qərbi azərbaycanlıların öz müqəddəratını təyin etmək hüququ var. Bu gün Azərbaycanın bir çox bölgəsində 1988-ci ildə Ermənistandan qovulan yüzminlərlə qərbi azərbaycanlı yaşayır. Bu insanlar qeyri-qanuni və beynəlxaq normalara zidd şəkildə Ermənistandan kütləvi deportasiya olunublar. Məsələ ondadır ki, bu, bir tarixi prosesin son dalğası idi. Yəni 1988-ci ildə Ermənistandan zorla qovulan azərbaycanlılar bundan öncə də mərhələli şəkildə Azərbaycana köçürülüb. Bütün bu tarixi faktlar bir daha onu göstərir ki, qədim Azərbaycan torpağı olan İrəvan ərazisində süni şəkildə ermənilərin sayı artırıldığı halda, soyqırım, köç və məcburi surətdə azərbaycanlıların sayı azaldılıb. Buna görə də deyə bilərik ki, bu gün İrəvan azərbaycanlılarının İrəvan uğrunda mübarizə aparması tam haqlı və tarixi bir zərurətdir".

Q.Hüseynli hesab edir ki, sonrakı proseslər koordinasiyalı şəkildə baş verməlidir:"Hələlik təşəbbüs qrupunda kimlərin təmsil olunduğundan xəbərim yoxdur. Ancaq istərdim ki, orda dünyanın hər yerində yaşayan və Qərbi Azərbaycanın bütün mahallarını təmsil edən ziyalılar təmsil olunsun. Bu ağır bir prosesdi. Buna görə də, rəhbərlikdə təmsil olunan adamların kimliyinə xüsusi fikir verilməlidir. Hətta rəhbərliyə erməni dilini yaxşı bilən mütəxəssislər də dəvət olunmalıdır".

Qərbi Azərbaycana Qayıdış İctimai Birliyinin sədri Rizvan Talıbov isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əvvəl bu ideyanın hardan meydana çıxdığını bilməyiblər:"Bilirsiniz ki, Qərbi Azərbaycan adı ilə indiyə kimi manipulyasiyalar olub. Bu addan istifadə edib, öz şəxsi maraqlarını təmin edənlər də az olmayıb. Biz də istəmədik ki, belə bir təşəbbüs kimlərinsə maraqlarına xidmət etsin. Apardığımız danışıqların nəticəsi olaraq belə qənaətə gəldik ki, bu şəxsən Qafar Caxmaqlının təşəbbüsü ilə irəli sürülüb. Qərbi Azərbaycandan olan bir çox ziyalı da buna dəstək verib. Bizim təklifimiz də nəzərə alındı ki, bu məsələni qurultay səviyyəsinə çıxarıb, ciddi şəkildə müzakirə etmək lazımdır.

**Bu, 3-5 adamın bir yerə yığışıb edəcəyi iş deyil. Həmin qurultaya Qərbi Azərbaycanın bütün bölgələrini təmsil edən nümayəndələr çağırılmalıdır. Təklifimiz budur ki, 75 nəfərdən ibarət parlament formalaşdırılsın, həmin parlament də hökuməti seçsin. Çalışmalıyıq ki, Rəvan xanın nəslindən olan şəxslərlə də əlaqə qurub, onları da bu işlərə cəlb edək. Biz təklifi qəbul etdik. Bu işdə yaxından iştirak edəcəyik".**

*Məhəmmədəli QƏRİBLİ*

# Neft bazarında Azərbaycanı da məmnun edəcək maraqlı proseslər başladı

**Neft qiymətlərində mayın əvvəlindən müşahidə edilən yüksəliş cüzi olsa da davam edir. Hazırda dünya bazarlarında 1 barrel neftin qiyməti orta hesabla 30 dollar təşkil edir. Amma bu qiymət, demək olar ki, hasilatçıların heç birini qane etmir. Bu səbəbdən hasilatın yenidən azaldılmasına dair təkliflər irəli sürülür.**

Artıq bəzi hasilatçılar bu iqstiqamətdə addım da atıb.

Xatırladaq ki, mayın 1-dən OPEC və bəzi qeyri-OPEC ölkələri (OPEC+) neft hasilatının məhdudlaşdırılması üzrə sazişin icrasına başlayıb. "Əməkdaşlıq Bəyannaməsi"nə əsasən, OPEC+ ölkələri sutkalıq neft istehsalını may-iyun aylarında 9,7 milyon barrel, iyulun 1-dən ilin sonuna kimi 7,7 milyon barrel, 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 milyon barrel azaldacaq. Bu fonda, yuxarıda qeyd olunduğu kimi, neft qiyməti müəyyən qədər artıb. Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol isə bildirir ki, neft istehsalçısı ölkələrdən daha böyük həcmdə məhdudiyyət gözlənilmir:"Normal şərtlərdə OPEC bu formada hasilat məhdudiyyətinə davam edəcək. ABŞ və Kanada kimi ölkələrdə neft istehsalı azalacaq. Biz də qiyməti bəlkə hazırkı səviyyələrdən bir az daha yüksək görəcəyik. Qiymətdə aşağı istiqamətli təzyiq ola bilər, lakin dünyada iqtisadi canlanma müşahidə ediləcək. Koronavirusun ikinci dalğası olmazsa və tələbatda canlanma müşahidə edilərsə, neftin qiymətinin bu səviyyələrdən bir qədər yuxarı qalxacağını düşünürəm". O bildirib ki, enerji sektorunun 50 aparıcı şirkət rəhbəri ilə görüşlər keçirib:"Hər kəs çox narahatdır və bütün şirkətlərdə ciddi sayda işdən azadetmələr olacaq. Yeni enerji layihələri hazırlamağa maraq çox azalıb. Lakin bəzi şirkətlər inkişaf etməkdə olan ölkələrdəki kiçik şirkətləri almaq üçün səy göstərəcək. İnkişaf edən və yüksək enerji tələbatı olan ölkələrdə çətin vəziyyətdə olan şirkətlərin satın alınması tendensiyası müşahidə ediləcək". Məhz bu vəziyyətdə bəzi hasilatçılar tərəfindən gözlənilməz addım atılıb. Məsələn, Səudiyyə Ərəbistanının Energetika Nazirliyi milli neft şirkəti olan "Saudi Aramco"ya iyun ayında OPEC+ çərçivəsində götürülən öhdəlikdən əlavə hasilatı könüllü şəkildə gündəlik 1 milyon barrel azaltmaqla bağlı göstəriş verib. Bununla hasilat apreldəki səviyyədən təxminən 4,8 milyon barrel az olacaq. Nəticədə, Krallığın iyun ayı üçün gündəlik neft hasilatı 7,5 milyon barrel təşkil edəcək. Səudiyyə Ərəbistanının neft hasilatını daha da azaltmaq qərarı qiymətlərin müəyyən qədər artımına səbəb olub. Bunun ardınca Küveyt və BƏƏ də hasilatın könüllü azalmasına qoşulduqlarını bildirib. Küveyt gündəlik hasilatı 80 min barrel, BƏƏ isə 100 min barrel azaldacağını bildirib. Təşəbbüsə digər ölkələrin də qoşulması gözlənilir. Bu halda neft qiymətlərinin daha sürətlə yüksəlməsi ehtimalı artır.



Daha bir maraqlı məsələ budur ki, hələ də dünyanın ən iri neft şirkəti adını daşıyan "Saudi Aramco" iyun ayında neft alıcıları üçün yeni qiymət qrafiki də formalaşdırıb. Qiymətlər bütün bazarlar, o cümlədən Asiya, ABŞ və Avropa üçün qaldırılıb. Mütəxəssislərin fikrincə, "Saudi Aramco" kompaniyasının qiymətləri bahalaşdırması neft bazarına tələbatın yaxşılaşması siqnalını verir. Belə ki, Asiya üçün iyun çatdırılmalarında neftin barreli 1,4 dollar bahalaşıb. Çin, Almaniya, Avstriya və digər ölkələrdə karantin tədbirlərinin tədricən aradan qaldırılması kimi xəbərlərə sərmayəçi reaksiyası da neftin bahalaşmasına səbəb olub. Lakin hələ ki, hazırkı qiymət artımını məqbul saymaq tezdir. OPEC+ sazişinin qüvvəyə minməsinə baxmayaraq, dünyada neft ehtiyatları artmağa davam edir. Ekspertlərin proqnozuna görə, məhz bu şəkildə hasilatın könüllü azaldılması ehtiyat və qiymətlərə təsir edəcək. Digər tərəfdən, karantin rejimində yumşalmalar da prosesə təsir edir. Xatırladaq ki, aprelin 27-dən sonra Avropa, Asiya və Afrikanın müxtəlif ölkələrində, həmçinin ABŞ-ın 32 ştatında karantin rejiminin yumşaldılması istiqamətində tədricən addımlar atılmağa başlanıb. Bu isə bazara neftə tələbatın artması ilə bağlı ilkin siqnalları verməkdədir. Neftə olan tələbatın, demək olar ki, 60%-i yanacaq sektoru ilə bağlıdır. Bu sektordakı sərfiyyatın isə təqribən 38%-i insanların işə gedib-gəlməsindən asılıdır. Karantin rejimlərinin yumşaldılması ilə artıq insanların iş fəaliyyəti tədricən bərpa olunmağa başlayır, bu da təbii olaraq nəqliyyat vasitələrinin sayını artırır. Eyni zamanda bir çox ölkələrdə emal müəssisələri, fabriklər işini bərpa etməyə başlayır. Bütün bunlar da, öz növbəsində, tələbatın yavaş-yavaş artması ilə nəticələnib.

Bundan əlavə, ABŞ-da təbii yolla hasilatın azalmasının gözləntilərdən daha sürətli şəkildə baş verməsinin də bazara təsir edən amillərdən olması diqqətdən yayınmır. ABŞ-da 7 minə yaxın quyunun bağlanması və texniki çətinliyə görə bir çoxunun yenidən istismara verilməsinin gözlənilmədiyi bəyan edilib. Bundan başqa, ABŞ-ın "Chevron" və "ExxonMobil" şirkətlərinin iyun ayına qədər hər birinin gündəlik hasilatı 400 min barrel, "ConocoPhillips" şirkətinin 460 min, digər kiçik şirkətlərin isə 3-50 min barrelə qədər azalda biləcəklərini bəyan etməsi onu göstərir ki, növbəti aylarda təbii yolla azalmaların daha da sürətlənmə ehtimalı var. Belə vəziyyət qiymətləri artırır. Qeyd edilənlərə paralel olaraq, bəzi ölkələrin hasilatı könüllü azaltması fonunda neft qiymətinin gələn ay ərzində 50 dollara çatması istisna edilmir. Bu isə Azərbaycan kimi bir sıra hasilatçılar üçün məqbul qiymətdir.

***Nahid SALAYEV***

# ABŞ və Çinin yeni savaşı dolları çökdürür, Azərbaycan uduşlu mövqedə...

**ABŞ və Çin arasında kəskinləşən münasibətlər iki ölkənin iqtisadi əlaqələri ilə yanaşı, dolların da taleyinə ciddi təsir göstərmək həddinə çatıb. Belə görünür ki, Çin ABŞ-ın ona yönəlik koronavirus ittihamlarına cavab olaraq Vaşinqtonu ən zəif yeri sayılan dollar üzərindən vurmağa hazırlaşır.**

Bu prosesdə Çin öncə ABŞ iqtisadiyyatına daha az sərmayə yatırmağı düşünür. Artıq Çinin 2019-cu ildə ABŞ iqtisadiyyatına birbaşa sərmayəsi öncəki illə müqayisədə azalaraq 5 milyard ABŞ dollarına düşüb. 2018-ci ildə isə bu göstərici 5,4 milyard dollar olmuşdu. Bu il isə tərəflər arasında ziddiyyət üzündən bu sərmayənin tam dayandırılması gözlənilir. Mütəxəssislər bu vəziyyəti iki ölkə arasındakı münasibətlərin soyuması və Çin hökumətinin xarici kapitala qoyulan sərmayələrə tətbiq etdiyi məhdudiyyətlərlə əlaqələndirir. Bundan əlavə, Çinin "South China Morning Post" nəşri yazır ki, Pekin ABŞ-ın qiymətli kağızlarını satışa çıxara və bununla da, ABŞ dollarını ucuzlaşdıra bilər. Yazıda bildirilir ki, Çin ABŞ-ın dövlət istiqrazlarına 1,1 trilyon dollar məbləğində investisiya qoyub və hazırda bu rəqəmi azaltmaq barədə düşünür. Bu addımın ikitərəfli ticarət münasibətlərindəki yeni gərginliyə və COVID-19 pandemiyasına görə ölkələr arasındakı "söz müharibəsi"nə cavab olaraq atılacağı deyilir.

Çinin qərarı həm də ABŞ-ın qiymətli kağızlar bazarı üçün problemlər yarada bilər. Çünki, rəsmi Vaşinqton pandemiyanın iqtisadi təsirlərini azaltmaq üçün bir sıra proqramları maliyyələşdirmək istəyir və bu məqsədlə dövriyyəyə yeni qiymətli kağızlar buraxır. Bundan başqa, investisiyalardan imtina ABŞ-ın nüfuzuna ciddi zərbə vuracaq və bu ölkənin qlobal investorlara ödəmə qabiliyyətini şübhə altına alacaq. Bu arada, "Deloitte China" nəşrinin baş iqtisadçısı Süy Sitao bildirib ki, Çin və Rusiya ABŞ hökumətinin dünya bazarında silah kimi istifadə etdiyi dollardan istifadəni dayandırmaq barədə müzakirələr aparır. Bu hal isə, ekspertlərə görə, dollar üçün müsbət heç nə vəd etmir. Rusiyalı iqtisadçı Aleksandr Losev də bildirir ki, Çinlə ABŞ arasındakı ticarət savaşı iqtisadi savaşa keçsə, dollar çökəcək və bütün dünyanın iqtisadi itkiləri dəfələrlə artacaq:"Qarşıdurmalar digər sferalarda da keçsə, o zaman dünya iqtisadi böhranı riskləri artacaq. 2008-ci il böhranı zamanı ABŞ-dan kənardakı dünyanın itkisi 3 trilyon dollara bərabər idi. Həmin dövrdən indiyə qədər qlobal iqtisadiyyat 27% artıb. Hazırkı qarşıdurma ən azı bu qədər itkiyə səbəb ola bilər. Ticarət müharibəsi iqtisadi savaşlarla nəticələnsə, bu, qlobal iqtisadiyyatın geriləməsinə və enerjiyə ehtiyacın azalmasına gətirib çıxaracaq. Bu, həm də dolların çöküşündə özünü göstərəcək".

"Dolların ucuzlaşdırılması həm Avropanın, həm də Amerikanın investorları üçün problem yaradır. Məlum olduğu kimi, Amerika dünyada həm ən çox xarici borcu olan, həm də ən böyük istiqraz dövriyyəsinə malik dövlətlərdən biridir. ABŞ öz valyutasını u c u z l a ş d ı r m a q l a borclarını daha ucuz valyuta ilə ödəyə bilər ki, bu da onun üçün müsbət bir addımdır. Amma məsələnin mənfi tərəfi bundan ibarətdir ki, bu addım investorları Amerikadan çəkindirə bilər. Buna görə də məsələdə bu şəkildə ziddiyyətlər ortaya çıxır. Bunlar Çinə də yaxşı məlumdur və Pekin dollara qarşı sərt addımlar atmaqda israrlıdır. Hesab edilir ki, bu fonda Çin ABŞ-da qiymətli kağızları satışa çıxarsa, digər dövlətlər də eyni addımı atacaq. Bu isə dolların sadəcə dünya iqtisadiyyatında rolunun üzərindən xətt çəkilməsi deməkdir. ABŞ və Çin arasında şiddətlənən iqtisadi savaş fonunda ekspertlər dollar üçün heç də müsbət proqnozlar vermir. Qeyd olunan məsələdə indilikdə Rusiya, Türkiyə, İran, bəzi Avropa ölkələrinin Çinin yanında yer alması müşahidə olunur. Proses, ekspertlərə görə, Qafqaza da təsir edəcək. Yeri gəlmişkən qeyd edək ki, bu durumda ABŞ və Çinin Azərbaycanın da yerləşdiyi Cənubi Qafqaza marağı əhəmiyyətli dərəcədə artıb. Xüsusən də, istər Çinin, istərsə də ABŞ-ın regionun əsas dövləti olan Azərbaycanla iqtisadi münasibətlərə indi daha çox diqqət yteirməsi aydın müşahidə olunur. Çin və ABŞ indilikdə Azərbaycanla iqtisadi əlaqələri daha da dərinləşdirməyə can atır. Azərbaycan isə hər iki ölkə ilə iqtisadi əməkdaşlığı genişləndirməkdə maraqlıdır və tərəflərin hər birinə münasibətdə neytral siyasət yürüdür. Belə görünür ki, Bakının bu yanaşmasından Pekin və Vaşinqton özləri də razıdır.

Hazırda Birləşmiş Ştatlarla Azərbaycan arasında bir çox istiqamətləri əhatə edən münasibətlər mövcuddur. Azərbaycan Birləşmiş Ştatlarla geniş iqtisadi əməkdaşlıq əlaqələri qurub. Bu əməkdaşlığın əsas istiqamətləri isə Azərbaycanda neft və qaz sektorunun inkişafı, yeni boru kəmərlərinin tikintisi və istismarı, "Şərq-Qərb" dəhlizi boyu infrastruktur layihələrinin həyata keçirilməsi, qeyri-neft sektoru sahəsində qarşılıqlı ticarətin genişləndirilməsidir. İki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinin göstəricilərindən biri olaraq ticarət dövriyyəsinin həcmi də ildən-ilə artmaqdadır. Hazırda Azərbaycanın Çinlə də iqtisadi əlaqələri genişlənir. Çinin "Bir Kəmər - Bir Yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olan Azərbaycan, həm də bu təşəbbüsün reallaşdırılmasında fəal iştirakçıdır. Çinin "Bir Kəmər - Bir Yol" təşəbbüsü çərçivəsində Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır.



Məhz bütün bunları əsas götürərək, nə ABŞ, nə də Çin Azərbaycanla münasibətləri pisləşdirməkdə maraqlıdır. Əksinə, belə görünür ki, tərəflərin hər ikisi, ticarət müharibəsinə rəğmən, Azərbaycanla əlaqələri daha sürətlə inikşaf etdirəcək. Amma bu ölkələrin iqtisadi savaşında dollarn çöküşünün Azərbaycana da təsir etməsi gözlənilir. Azərbaycan bu fonda, istisna olunmur ki, valyuta ehtiyatlarının tərkibi ilə bağlı siyasəti yeniləsin.

***Ramil QULİYEV***

# "EuroHome" sahibi kimə meydan oxuyur - Kəmaləddin Heydərov ciddi mesaj verdi...

**11 may 2020-ci il tarixində saat 22:51-də Bakı şəhərinin Binəqədi rayonunda yerləşən "EuroHome" tikinti materialları bazarında yanğın baş verib. Yanğın saat 00:30-da məhdudlaşdırılıb, 01:30-da isə tam söndürülüb.**

Ümumi sahəsi təqribən 22 500 kv.m.-ə yaxın olan bazarın 3 300 kv.m. hissəsi yanıb, bazarın qalan hissəsi yanğından mühafizə olunub. Hadisə yerinə Dövlət Yanğından Mühafizə Xidməti, Xüsusi Risqli Xilasetmə Xidməti, Mülki müdafiə qoşunları və Bakı Regional Mərkəzinin ümumilikdə 406 nəfər canlı qüvvəsi və 54 ədəd texnikası cəlb olunub. Onu da bildirək ki, bazar 2019-cu ilin dekabrında da, demək olar ki, tam yanmışdı.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov sözügedən bazarda yenidən yanğının baş verməsini bazar rəhbərliyinin məsuliyyətsizliyi ilə izah edib:

"Ticarət mərkəzindəki əvvəlki yanğından sonra obyekt sahiblərinə və ümumilikdə rəhbərliyə xəbərdarlıq edilmişdi ki, təmir-bərpa işləri tam yekunlaşmamış mallar yerləşdirilməsin. Çünki işlər tam yekunlaşdıqdan sonra Fövqəladə Hallar Nazirliyi və müvafiq icra hakimiyyəti orqanı buna icazə verməlidir. Lakin görünən odur ki, ticarət mərkəzinin rəhbərliyi bu işə məsuliyyətsiz yanaşıb. Təmir işləri tam yekunlaşmamış, obyektin fəaliyyətinə tərəfimizdən tam razılıq verilməmiş mağazalara mallar yerləşdirilib. Nəticədə yenidən belə bir hadisə baş verib".

K.Heydərov vurğulayıb ki, yanğının səbəbkarı haqqında hüquqi prosedur tətbiq olunacaq:

"Yanğının baş verməsinə səbəb olan hər bir şəxs barəsində qanuna müvafiq tədbirlər görüləcək. Artıq bu barədə hüquq-mühafizə orqanları əməkdaşlarına lazımi tapşırıqlar verilib".

Qeyd edək ki, "EuroHome" tikinti materialları bazarının rəhbəri Samir Məmmədov təkrarən baş verən yanğının səbəblərini başqa cür əsaslandırıb. Onun sözlərinə görə, bazarda yanğından mühafizə olunmaq üçün bütün ehtiyat tədbirləri görülübmüş: "Bazarda nə elektrik naqilləri işləyib, nə qaz olub. Belə olan halda yanğın necə baş verə bilər? Mühafizəçimizin sözlərinə görə, yanğın bazarın arxasında yerləşən "TIR parkı"ndan başlayıb. Çox güman ki, onun dedikləri təsdiqlənər. Hazırda burada ciddi araşdırmalar gedir. Bu dəqiqə mən Baş Prokurorluğun müstəntiqlərinə ifadə verirəm".



İş adamı Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun onu məsuliyyətsizlikdə suçlamasına da münasibət bildirib:"Düzdür, cənab nazir bizi məsuliyyətsizlikdə ittiham edir. Amma biz yanğından mühafizə üçün lazım olan hər şeyi etmişdik və bu məsələni tam şəkildə standartlara uyğunlaşdırmaq üçün şirkətlərlə müqavilə bağlamışıq. Dünən yanğının söndürülməsi üçün bazarda olan su ehtiyatından və digər köməkçi vasitələrdən istifadə olundu".

Göründüyü kimi, bazar rəhbərliyi baş verən təkrar yanğınla bağlı ünvanlarına səslənən ittihamları qəbul etmək istəmir. Biz adətən görürük ki, baş verən analoji yanğın halları ilə bağlı daha çox bazarları işlədən sahibkarların məsuliyyətsizliyi üzə çıxır. Nəticədə məlum olur ki, aylıq baha qiymətə icarəyə verdikləri obyektlərin icarədarlarının heç birinin sığortası yoxdur. Yanan bazarlarda isə yanğından təhlükəsizlik qaydalarına, demək olar ki, əməl edilməyib. Sözügedən bazar birinci dəfə yananda biz bunun şahidi olduq.

**Deyilən qaydalara əməl edilmədiyi səbəbindən bazar, demək olar ki, külə döndü. Sonra şahidi olduq ki, orda tələsik işlər aparılır. Bazarın təmir edilməsi normaldır. Ancaq xüsusi icazəyə məhəl qoymadan, nə olursa-olsun daha çox pul toplayım prinsipi ilə işləməyin son aqibəti belə olur. Bir daha şahidi oluruq ki, qanunlara meydan oxumaq istəyən sahibkarların məsuliyyətsiz davranışlarının sonda ziyanı dövlətə və sadə vətəndaşlara dəyir.**

*Məhəmmədəli QƏRİBLİ*

# İctimai nəqliyyatda koronavirusa qarşı yeni qaydalar...

**Paytaxt Bakıda hərəkət icazəsi olan insanlar hər gün işə gedib-gəlməyə məcburdurlar. Bunun üçün çoxu ictimai nəqliyyatdan istifadə edir. Karantin rejimi ilə əlaqədar olaraq ictimai nəqliyyatdan istifadə edən əhaliyə ehtiyatlı olmaq tövsiyə olunur.**

*"İctimai nəqliyyatda profilaktika qaydalarına riayət edilərsə, koronavirusun yayılmasının qarşısı alınar"*

İctimai nəqliyyatdan istifadə edən sərnişinlər təhlükəsizlik üçün tibbi maska və əlcək taxmalıdırlar.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) "İctimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodik göstərişlər" əsasında yeni qaydalar hazırlayıb. İctimai nəqliyyatda koronavirus profilaktikasına dair yeni qaydalar təsdiq olunub. Qaydalar daşıyıcı şirkətlər, sürücülər və sərnişinlər üçün nəzərdə tutulub. Bu qaydalara riayət etməklə, məsuliyyətli vətəndaş olaraq, özünüzü və ətrafdakıları COVID-19 infeksiyasından qoruya bilərsiniz.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, ictimai nəqliyyatdan istifadə edən bütün sərnişinlər maska taxmalıdırlar. Ancaq mənzərə onu deməyə əsas verir ki, sərnişinlər hələ də sağlamlıqlarına biganə yanaşırlar. Əslində, vətəndaşlar sosial məsafəni qorumalı, ictimai yerlərdə virusdan qorunmaq üçün maska və əlcəkdən istifadə etməlidirlər: "Taksilərdə isə sərnişinlər bu gündən yalnız arxada oturmalı, sürücü ilə sərnişinin arası şəffaf arakəsmələrlə ayrılmalı idi. Bəzi taksilərdə bu tələbə əməl edilsə də, əksəri hələ də riayət etmir".

***İlqar Hüseynli:** "İctimai nəqliyyatdan istifadə edən bütün sərnişinlər maska taxmalıdırlar"*



Həmsöhbətimiz onu da əlavə etdi ki, sərnişinlərlə sürücünün fiziki təmasının istisna edilməsi üçün nəqliyyat vasitələrində kabina yaradılmalıdır. Kabina yoxdursa, şəffaf arakəsmə də quraşdırıla bilər: "Bununla yanaşı, ictimai nəqliyyat vasitələrinin havası vaxtaşırı dəyişdirilməlidir. Avtobus və taksilər mütəmadi olaraq dezinfeksiya edilməlidir. İctimai nəqliyyatda profilaktika qaydalarına riayət edilərsə, koronavirusun yayılmasının qarşısı alınar".

*Günel CƏLİLOVA*

# Dövlət satınalmalarının Azərbaycan ictimaiyyətindən gizlədilməsinə dair ciddi fakt...

**Hesablama Palatasının yaydığı məlumata görə, dövlət satınalmalarının 39 faizi ictimaiyyətdən gizlədilib. Belə ki, Hesablama Palatasına satınalan qurumlar tərəfindən təqdim edilən hesabatlara əsasən, ümumilikdə, 514,4 mln. manat dəyərində 1147 satınalma müqaviləsi internet portalın "bağlanmış müqavilələr haqqında məlumat" bölməsində yerləşdirilməyib.**

*"Satınalmalara nəzarət gücləndirilməli və bu sahədə işlərin şəffaf qurulması təmin edilməlidir"*

***Rəşad Həsənov:** "...korrupsiya üçün əlverişli mühitin yaradılması..."*



Bu barədə HP-nin 2019-cu il üçün hesabatında deyilir. Satınalan qurumlar müsabiqə satınalmaları üzrə yekun protokolları nəzarətçi orqana - İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə (ASİBNDX) təqdim edir. Bu xidmətin məlumatına əsasən, 2018-ci ildə satınalan təşkilatlar tərəfindən 8964 müsabiqə əsaslı satınalma keçirilib. Lakin Xidmət dövlət satınalmalarının vahid internet portalında (etender.gov.az) 5463 satınalma müqaviləsi barədə məlumat yerləşdirib. O da məlum olub ki, Hesablama Palatası 2019-cu ildə dövlət qurumlarında aparılan audit nəzarəti zamanı 500-dən artıq pozuntu halı aşkar edib. Əvvəlki illərdə olduğu kimi, əsas pozuntular büdcə qanunvericiliyi, dövlət satınalmaları, dövlət əsaslı vəsait qoyuluşları kimi sahələrdə və eləcə də mühasibat uçotu və hesabatlılıqla bağlı pozuntular üstünlük təşkil edir.

Bütün hallarda, dövlət satınalmalarının 39 faizinin ictimaiyyətdən gizlədilməsi çox ciddi rəqəmdir. Maraqlıdır, satınalmaların gizlədilməsində məqsəd nədir?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənovun sözlərinə görə, belə hallar müəyyən fərdi maraqlarla və digər məsələlərlə bağlıdır: "Qanunvericilik sənədinə uyğun olmadan hansısa işlər görülür. Bir sıra hallarda qanunvericiliyin tələbinə uyğun olmadan və bunun əksinə olaraq işlər həyata keçirilir. Ən başlıcası, burada satınalmalar zamanı sövdələşmələrdə qiymət razılaşmalarında müəyyən subyektiv maraqların nəzərə alınması məsələsi var. Həqiqi rəqabət mühiti pozulur. Ən yüksək qiyməti təklif edən şirkətlə müqavilə bağlanır. Hansı ki, belə hallarda ictimai qınaq yaranmasın və yaxud da ictimai nəzarət olmasın deyə, satınalmaların nəticələri gizlədilir. Yəni satınalmalar ictimailəşdirilmir və bu haqda məlumatlar müvafiq portallarda yerləşdirilmir.

Bütün bunlar məhz subyektiv maraqların nəzərə alınması və korrupsiya üçün əlverişli mühitin yaradılması məqsədi daşıyır. Ona görə də sözügedən məsələdə qanuna müvafiq olaraq Hesablama Palatası və aidiyyəti dövlət qurumlarının üzərinə ciddi öhdəliklər düşür. Xüsusən də neft gəlirlərinin azaldığı indiki dövrdə bu çox vacib məsələdir. Bu baxımdan, satınalmalara nəzarət gücləndirilməli və bu sahədə işlərin şəffaf qurulması təmin edilməlidir".

***Vidadi ORDAHALLI***

# Türk lirəsinin ucuzlaşması Azərbaycanla ticarətə hansı təsirləri göstərə bilər...

**Türkiyə milli valyutası dəyərini itirməkdə davam edir. Türk lirəsi bir sıra valyutalar qarşısında sürətlə dəyər itirir. Təkcə son 1 ayda lirə dollar qarşısında 8 faizə yaxın ucuzlaşıb. Türk lirəsinin dəyər itirməsinə başlıca səbəb kimi ixracın zəifləməsi, ölkənin tədiyyə balansında mənfi saldonun yaranması göstərilir.**




***Samir Əliyev:** "...koronavirus böhranından sonra Azərbaycandan ora turist axınını daha da gücləndirə bilər..."*

Belə ki, koronavirusa görə tətbiq edilən məhdudiyyətlər xarici ölkələrdən sifarişlərin azalmasına, nəticədə ixracın zəifləməsinə gətirib çıxarıb. Üstəlik, Türkiyə iqtisadiyyatında böyük paya malik olan turizm sektorunun tam dayanması lirənin ucuzlaşmasını sürətləndirib.

Maraqlıdır, türk lirəsinin dəyərdən düşməsinin Azərbaycan iqtisadiyyatına təsiri ola bilərmi?

İqtisadçı-ekspert Samir Əliyev qeyd etdi ki, Azərbaycanın xarici ticarətinin 10-13 faizi bu ölkənin payına düşür: "Türkiyə Rusiyadan sonra bizim ən böyük idxalat həyata keçirdiyimiz tərəfdaşdır. Məlumat üçün bildirim ki, ölkəyə daxil olan malların 13-14 faizi onun payına düşür. Türkiyədə iqtisadi vəziyyət pandemiyadan əvvəl də ürəkaçan səviyyədə deyildi. Pandemiya səbəbindən iqtisadi aktivliyin zəifləməsi problemi daha da dərinləşdirib. Milli valyutaya təzyiq səviyyəsini qiymətləndirmək üçün tələb olunan məlumatları özündə əks etdirən tədiyyə balansı hələ ki, fevral ayını əks etdirir. Böyük ehtimalla, bu göstəricilər daha da pisləşib. Fevral ayı göstəricilərinə baxdıqda lirənin niyə ucuzlaşdığını görmək olar. Məsələn, iki ay ərzində cari hesablar balansının kəsiri artaraq 2,8 milyard dollar olub. Birbaşa investisiyalar təkcə fevral ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 129 milyon azalaraq 309 milyon dollara düşüb, yanvar-fevral ayı üzrə 1,1 milyarda (146 milyon azalma) bərabər olub. İki ay üzrə göstəricilərə baxsaq, portfel investisiyalarında vəziyyət daha gərgindir. İki ay ərzində bu investisiyaların cəlbində 840 milyon kəsir yaranıb. Halbuki, ötən ilin müvafiq dövründə 7,7 milyard dollar profisit mövcud olub. Kapital axınının güclənməsi, investisiyaların azalması milli valyutaya təzyiqi artırır".

*"Azərbaycan manatı dollara bağlı olduğundan, lirənin dollara qarşı ucuzlaşması avtomatik olaraq onu manata qarşı da ucuzlaşdırır"*

S.Əliyevin sözlərinə görə, Azərbaycan manatı dollara bağlı olduğundan, lirənin dollara qarşı ucuzlaşması avtomatik olaraq onu manata qarşı da ucuzlaşdırır: "Bunun Azərbaycana daha çox sosial baxımdan müsbət təsiri var. Türkiyədən gələn malların ucuzlaşması imkanı yaranır. Eyni zamanda, bu, ölkədə təhsil alan azərbaycanlı tələbələrin təhsil haqlarının manat ifadəsində ucuzlaşmasına səbəb olur. Mənfi təsirlər kimi onsuz da zəif olan qeyri-neft ixracımıza təsirini, Türkiyədə işləyib, vətənə pul göndərən soydaşlarımızın gəlirlərinin azalmasını və Azərbaycandan bu ölkəyə kapital axınının (məsələn, əmlak bazarına) güclənməsini qeyd etmək olar.

**Digər tərəfdən, Türkiyədə istirahətin cəlbediciliyinin artması koronavirus böhranından sonra Azərbaycandan ora turist axınını daha da gücləndirə bilər ki, bu da bizim daxili turizmə zərbədir. Turist axını həm də ölkədən valyuta çıxışı deməkdir".**

***Günel CƏLİLOVA***

# Cəmiyyətin xeyrinə banklara kreditlərlə bağlı verilmiş "30 sentyabradək möhlət"inə banklarda müqavimət var

**Azərbaycan Mərkəzi Bankı (AMB) Prezident İlham Əliyevin "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi "Tədbirlər Planı"nın "Karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi" tədbirinin icrası çərçivəsində Maliyyə Sabitliyi Şurasının tövsiyələrini nəzərə almaqla müvafiq qərar qəbul edib.**

*"Onlar üçün həmrəylik, əhalinin vəziyyətini nəzərə almaq məfhumu deyilən bir anlayış yoxdur"*

***Fuad İbrahimov:** "Bu ondan irəli gəlir ki, banklar ancaq öz kommersiya maraqlarını güdürlər"*




Bu qərarda diqqətçəkən məsələlərdən biri banklara kredit ödənişlərinin gecikdirilməsinə görə sentyabrın 30-na qədər borcludan cərimə faizi, dəbbə pulu və digər ödənişlərin tutulmamasının kredit təşkilatlarına tövsiyə edilməsidir. Lakin əhali arasında gəzən məlumatlara görə, bir sıra banklar bu tövsiyələrin icrasına əməl etmirlər və müştəriləri kredit üzrə ödənişləri ödəməyə çağırırlar. Kredit borcu olanlara müxtəlif cür təzyiq edirlər. Sanki bütün bu deyilənlərin onlara heç bir dəxli yoxmuş kimi davranırlar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, bəzi bankların məlum tövsiyələrə biganə yanaşaraq bunu görməzdən gəlmələri təəssüf doğurur: "Bu gün koronavirusun yaratdığı mənfi təsirləri minimuma endirmək üçün dövlət tərəfindən bir sıra işlər görülür. O cümlədən, bəzi insanlar kiməsə yardım əlini uzatmağı özünə borc bilir. Müxtəlif xeyriyyə aksiyaları keçirilir və ehtiyacı olan şəxslərə yardım edilir. Ancaq təəssüflər olsun ki, bu məsələdə kommersiya təşkilatı olan banklar çox biganə davranış sərgiləyirlər. Öz maraqlarını hər şeydən üstün tuturlar. Əhaliyə heç bir güzəşt etmək istəmirlər. Güzəşt deyiləndə söhbət ondan getmir ki, götürülən pul geri qaytarılmasın. Söhbət vətəndaşlara verilən möhlətdən gedir. Yəni ödəniş bir neçə ay gecikdirilə bilər. Ancaq çox təəssüflər olsun ki, banklar hər vasitə ilə bundan yayınmağa çalışırlar. Bu da ondan irəli gəlir ki, banklar ancaq öz kommersiya maraqlarını güdürlər. Onlar üçün həmrəylik, əhalinin vəziyyətini nəzərə almaq məfhumu deyilən bir anlayış yoxdur. Yəni vətəndaşın borcu varsa, ödəməlidir prinsipindən çıxış edirlər. Başa düşmürlər ki, ödəniş qabiliyyəti olan vətəndaş onsuz da bunu ödəyəcək. Görünür, ödəniş qabiliyyəti yoxdur ki, ödəniş gecikir.

Bankların məlum davranışı sözügedən kommersiya qurumlarına yaraşmır. "Tədbirlər Planı"nda banklar üçün nəzərdə tutulan məqam tövsiyə xarakterlidir. Yəni məcburi xarakterli deyil. Banklar da bundan sui-istifadə edirlər. Görünən odur ki, banklar humanist prinsiplərdən uzaqdırlar".

**_Vidadi ORDAHALLI_**

# Ünvanlı sosial yardım mexanizmi dəyişir, yardım alanların sayı bir az da artırılır...

**Sosial yardım almaq hüququ ilə bağlı ailələr üçün müəyyənləşdirilmiş şərtlər yumşaldılır. Bu, "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Hazırkı qanuna əsasən, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdir.**

*"Əsas məqsəd ələbaxımlılıq psixologiyasının yaranmaması və aztəminatlı ailələrdən olan insanların məşğulluğunun təmin edilməsi yolu ilə"*

***Musa Quliyev:** "Azərbaycanda əhalinin ünvanlı sosial yardım almaq imkanları daha da böyüyür"*



Təklifə əsasən isə ailənin əmək qabiliyyətli üzvünün birinci dərəcə əlilliyi olan şəxsə, 8 yaşına çatmamış uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması da sosial yardım ala bilmək üçün səbəblərə daxil edilir.

Digər təklif isə sosial yardımın təyin olunma müddətinin azaldılması ilə bağlıdır. Müddətin hazırkı iki ildən 1 ilə endirilməsi nəzərdə tutulur. Bildirilir ki, təyinat müddətini qısaltmaqla, həm ailənin gəlirlərinin dəqiq müəyyənləşdirilməsi, həm də sosial yardım işlərinə nəzarət mexanizmi gücləndiriləcək. Qanun layihəsi qəbul ediləcəyi təqdirdə, növbəti illərdə ünvanlı dövlət sosial yardımı və özünəməşğulluq proqramlarının genişləndirilməsi, həmçinin, aktiv özünəməşğulluğa yönləndirilməsi proqnozlaşdırılır.

Məlumat üçün bildirək ki, son bir ayda ünvanlı yardım alan ailələrin sayı 12 min, başqa sözlə, 50 min ailə üzvü artaraq 1 may tarixinə 82 mini və ya 342 min ailə üzvünü ötüb. Yardımın hər ailəyə düşən orta aylıq məbləği isə 224 manatdır.

Vətəndaşların sosial yardım almaq imkanlarının genişləndirilməsinin əhəmiyyəti barəsində danışan millət vəkili Musa Quliyev qeyd etdi ki, Azərbaycanda əhalinin ünvanlı sosial yardım almaq imkanları daha da böyüyür: "Bununla bağlı "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna bir neçə dəyişiklik edilir. Qanuna edilən dəyişikliklə ünvanlı sosial yardım daha çox insanı əhatə edəcək. Qanuna təklif olunan digər bir dəyişikliklə isə ünvanlı sosial yardım alanların uçotlarının və düzgün informasiyaların vaxtında verilməsi təmin ediləcək. Başqa bir dəyişikliyin də mahiyyəti ünvanlı sosial yardımın təyin olunmasının 2 ildən 1 ilə endirilməsidir. Burada əsas məqsəd ələbaxımlılıq psixologiyasının yaranmaması və aztəminatlı ailələrdən olan insanların məşğulluğunun təmin edilməsi yolu ilə dayanıqsız passiv sosial təminat tədbirlərindən dayanıqlı aktiv məşğulluq proqramlarının tətbiqinə keçilməsindən ibarətdir".

**_Günel CƏLİLOVA_**

№ 76 (4207) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

13 MAY 2020-ci il

www.baki-xeber.com



# Bu ölkədə karantinə riayət olunmasına robot-it nəzarət edir...

**Sinqapurda karantin tədbirlərinə nəzarət üçün mexaniki robot-it fəaliyyətə başlayıb. "AZƏRTAC" bildirir ki, qurğu müstəqil şəkildə ictimai yerlərin keşiyini çəkir, yoldan ötənlərə bu sözlərlə müraciət edir:**

"Sinqapurluların sağlamlığını qoruyaq, sizin şəxsi təhlükəsizliyiniz və ətrafdakıların təhlükəsizliyi üçün bir metrlik sosial məsafəyə riayət edin. Çox sağ olun". Robotlar gözə çarpmaqdan ötrü parlaq qara-sarı rəngə boyanıb və vəziyyəti dəyərləndirmək üçün xüsusi kameralarla təchiz edilib. Robota artıq "Spot", yəni "Ləkə" ləqəbi də verilib. Hələ ki, bir nüsxədə hazırlanan bu qurğu ABŞ-ın "Boston Dynamics" istehsalçı şirkətindən alınıb. Eksperiment insan həyatı üçün yüksək risqli yerlərdə robotlardan istifadənin səmərəliliyini üzə çıxarmaq məqsədi daşıyır. Uğur əldə ediləcəyi təqdirdə koronavirusla mübarizə çərçivəsində robot texnikasından kütləvi şəkildə istifadəyə başlamaq planlaşdırılır. Eksperiment maraqlı hadisələrsiz də ötüşmür. Sinqapurun "The Straits Times" qəzetində dərc olunmuş fotoşəkillərdə robot-it qəflətən piyadaların yanında dayanaraq müəyyən edilən qaydaları pozmamağa çağırarkən, sosial məsafəyə riayət edən insanların çöhrələrində çaşqınlıq görmək mümkündür. Qeyd etmək lazımdır ki, bu eksperiment insanlarda ziddiyyətli emosiyalar yaradır. Məsələn, robotu videoya çəkən amerikalı jurnalist Qlen Qrinvald onu "həyatda indiyədək gördüyü ən mənasız antiutopik əşya" adlandırıb. Hakimiyyət orqanları robot-itin yalnız qrup halında toplanan insanların qeydə alınması üçün proqramlaşdırılmasını təsdiqləsələr də, hüquq müdafiəçiləri bu qurğudan əhalinin izlənilməsi məqsədilə istifadə olunacağından ehtiyatlanırlar. Karantin rejiminə riayət üçün texnikanın istifadə olunduğu Sinqapur təcrübəsinə gəlincə, hakimiyyət orqanları ilk gündən bu məqsədlə 30 dron işə salıb. Mexaniki "it"dən istifadə etmək fikri isə onunla bağlıdır ki, "itlər" insanların daha çox diqqətini cəlb edir və ləngiyən piyadaları tələsdirmək üçün ondan istifadə etmək əlverişlidir. Qeyd edək ki, əhalisi 5,7 milyon olan Sinqapurda indiyədək koronavirusa 21 min yoluxma halı aşkar edilib. Bu, əsasən ağzınadək dolu yataqxanalarda yaşayan işçi-miqrantlar arasında müşahidə olunub.




## "Azercell" "Yeni Hər Yerə" tarifini təqdim edir!

**Hər zaman abunəçilərini innovativ xidmətlər və yeni servislərlə sevindirən "Azercell Telekom" MMC tarif portfelini növbəti dəfə genişləndirir. Bu dəfə lider mobil operator əzizlərinizlə ünsiyyəti daha da əlçatan etməyi hədəfləyərək, mobil bazara "Yeni Hər Yerə" tarifini gətirir.**

Yeni tarif çərçivəsində "Azercell"in Fakturalı xətt istifadəçilərinə ölkədaxili istənilən istiqamətdə vahid qiymətə danışmaq fürsətilə yanaşı, həmçinin, hər ay 500 MB internet də verilir. Beləliklə, may ayının 5-dən etibarən Fakturalı xətt abunəçiləri ayda cəmi 5 AZN ödəməklə 500 MB həcmində internet və ölkə daxilində bütün istiqamətlərə zəngin bir dəqiqəsinə 0.05 AZN ödəmək imkanı qazanır. Bu təklifdən yararlanmaq üçün Yeni açar sözünü 650 qısa nömrəsinə göndərmək və ya telefonun ekranında *750*5#yes kombinasiyasını yığmaq kifayətdir. Həmçinin, "Yeni Hər Yerə" tarifini "Azercell"in "Kabinetim" mobil tətbiqi vasitəsilə də aktivləşdirmək mümkündür.

"Yeni Hər Yerə" tarifi - rahat ödəniş, rahat ünsiyyət.

Tarif haqqında ətraflı məlumat üçün https://www.azercell.com/az/personal/tariffs/postpaid/new_her_yere/ səhifəsinə keçid etməyiniz xahiş olunur.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

26 dekabr 2017-ci ildə Quliyeva Sevinc Əsgər qızına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılsın.

Şəki şəhər sakini Fətəliyev Məmməd Mustafa oğlunun adına verilmiş 404013063193-10301 nömrəli reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır.

Umudov Sahil Umud oğlunun adına, Bakı şəhəri, Səbail rayonu, İstiqlaliyyət küçəsi, ev 47, mənzil 48/52 ünvanına verilmiş çıxarış (seriya RX N1360305) itdiyi üçün etibarsız sayılır.

Azadov Muradxan Musa oğlunun adına 22.11.2001-ci ildə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dövlət əmlakının özəlləşdirilməsi idarəsi tərəfindən verilmiş, qeydiyyat nömrəsi 000702 olan şəhadətnamə və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Ağayev Qabil Əsgər oğlunun adına, 30 dekabr 1997-ci il tarixli Zarat Yerli Aqrar İslahat Komissiyasının 8 nömrəli protokolu itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Gün mürəkkəb və məsuliyyətli işlərin həlli üçün münasibdir. Bütün fikir ayrılıqlarını sakitcə aradan qaldıraraq iş ortaqlarınızla hamını məmnun edəcək əməkdaşlıq barədə razılığa gələ bilərsiniz.



**Buğa** - Uzunmüddətli planlar qura, sənədləri imzalaya, irimiqyaslı layihələr üzərində işə başlaya bilərsiniz. Yaxın adamlarınızla ünsiyyət sizə sevinc bəxş edəcək. Kiminləsə münasibət qurmaq istəyirdiniz? Fəaliyyətə keçin, əsl vaxtıdır.



**Əkizlər** - Gün sizə çox uğursuz görünür. Müsbət tendensiyalar arabir varlığını hiss etdirir, amma əhvalınızın düzəlməsi üçün bu kifayət etmir. Xüsusilə vacib görüşlərə gedənlər, seminar və konfranslar keçirən, kütlə qarşısında çıxış edənlər üçün çətin olacaq.



**Xərçəng** - Sadəcə sənədlər, alətlər və yaxud maraqlı bir kitabla başbaşa qalan Xərçənglərin vaxtı daha yaxşı keçəcək. Yaxınlarınızla münasibətləriniz hamar, amma bir az soyuqdur, bu isə sizi narahat edir.



**Şir** - Bu günün çətinliklərinə baxmayaraq, yaxşı əhvalı və həyata nikbin baxışınızı qoruyub saxlayırsınız. Vaxtilə birlikdə oxuduğunuz və yaxud ümumi elmi maraqlarla bağlı olduğunuz insanlarla görüşlər üçün əla gündür.



**Qız** - İşə köklənmək elə də asan deyil. Çünki fikriniz tamam başqa yerdədir. Həmkarlarınızla mübahisələr mümkündür. Çətin ki, rəhbərlik vəzifənizi yerinə yetirmək tərzinizdən razı qalsın.



**Tərəzi** - Emosional durumunuz elə də yaxşı deyil. Öz qələbələrinizə sevinmirsiniz. Bir çox Tərəzilər bu yaxınlarda yaranmış şəxsi problemləri səbəbindən narahatdırlar, qara fikirlərdən can qurtarmaq çətindir.



**Əqrəb** - Məhsuldar gündür. İş görmək vaxtıdır. İrimiqyaslı işgüzar planlarınızı həyata keçirməyə çalışın. Xeyli məsələnin öhdəsindən gəlmək gücündəsiniz. Sizə şübhə edənlərə tam əksini sübut edə bilərsiniz.



**Oxatan** - Bu gün vaxtından tez "yanırsınız": təsadüfən uğursuzluğa düçar olursunuzsa, başladığınız işə olan bütün həvəsiniz itir. Axşam vəziyyət 180 dərəcə dəyişir. Qaraqabaq, qapalı birinə çevrilir, ünsiyyəti məhdudlaşdırırsınız.



**Oğlaq** - Günün birinci yarısı enerjinizin aşıb-daşdığını hiss edəcəksiniz. Mürəkkəbliyindən, qarışıqlığından asılı olmayaraq istənilən işin qulpundan yapışmağa hazırsınız. Peşəkar ambisiyalarınız güclənir, yaradıcı planlarınızı həyata keçirmək həvəsiniz də artır.



**Dolça** - Xoş sürprizlər gözləyin. Çoxdan düşündüyünüz bir planı həyata keçirmək şansınız yaranacaq. Hadisələrin uğurlu inkişafı maliyyə vəziyyətinizi yaxşılaşdırmağa imkan verəcək.



**Balıqlar** - İşdə ciddi fikir ayrılıqları olacaq. Bunları aradan qaldırmaq üçün nəzakətli olmaq lazım gələcək. Düşündüyünüzü dilinizə gətirməyə tələsməyin. Amma yenə də "illah da deməliyəm!" niyyətindəsinizsə, öncə iki dəfə düşünün.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Gül qoxusunun inanılmaz effekti ortaya çıxdı



**Almaniyanın "Frayburq" Universitetinin tədqiqatçıları tərəfindən aparılan araşdırmada gül qoxusunun öyrənmə və bilik əldəetmə qabiliyyətini artırdığı məlum olub.**

"Milli.Az" xəbər verir ki, tədqiqatda 6-cı sinifdə oxuyan 50 şagird iştirak edib. İki qrupa ayrılan şagirdlərə eyni dil tədris edilib. Lakin qruplardan birinin masasına axşam dərslərinə çalışarkən gül ətirli təravətləndirici qoyulub. Daha sonra şagirdlərə öyrəndikləri məlumatlar əsasında söz testi təqdim edilib. Nəticələri yoxlayan tədqiqatçılar maraqlı situasiya ilə qarşılaşıblar. Belə ki, təravətləndiricinin təsiri altında hazırlaşan şagirdlərin məlumat qəbulunda 30%-lik artım müşahidə olunub.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.